## 32 ildən sonra...

### Elizabet Born Fransanın ilk qadın Baş nazirdir



**Fransanın əmək, məşğulluq və inteqrasiya naziri Elizabet Born Fransanın yeni Baş naziri təyin edilib.**

Fransanın 61 yaşlı yeni Baş naziri Elizabet Born 32 ildən sonra ilk qadın Baş nazirdir.

*Qeyd edək ki, E.Born körpü tikintisi üzrə mühəndis olub. 2013-2014-cü illərdə Ekologiya Nazirliyində kabinet direktoru, 2017-ci ildə Eduard Filip hökumətinə nəqliyyat naziri, 2019-cu ildə ekoloji keçid və həmrəylik naziri olub. 2020-ci ildən isə əmək, məşğulluq və inteqrasiya naziri vəzifəsində çalışıb.*

## Polis hadisə yerinə gəldi

### Sabunçuda küçədə yeni doğulmuş körpənin çürümüş meyiti aşkarlandı




**Bakının Sabunçu rayonu ərazisində yeni doğulmuş körpənin çürümüş meyiti aşkarlanıb.**

Çürümüş meyiti küçədə rayon sakini görüb və bu barədə polisə məlumat verib.

Faktla bağlı Sabunçu rayon Polis İdarəsi tərəfindən araşdırmalara başlanıb.




# Türkiyədə terrorçu-kamikadze saxlanılıb

### Çoxlu sayda rəqəmsal material ələ keçirilib

**Türkiyənin Şanlıurfa şəhərində "Ebi Enes El Kahtani" kod adlı terrorçu-kamikadze saxlanılıb.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə NTV telekanalı məlumat yayıb.

Şübhəlinin yaşadığı yerdə aparılan axtarış zamanı çoxlu sayda rəqəmsal material ələ keçirilib.

Məlum olub ki, həmin şəxs İŞİD terror təşkilatının Suriyanın Dəməşq əyalətindəki səlahiyyətliləri ilə əlaqə saxlayaraq Türkiyədə terror aktı törətməyi planlaşdırıb.

Tutulan terrorçu ilə birlikdə bu il İŞİD-in Türkiyədə planlaşdırdığı 10-cu kamikadze hücumunun qarşısı alınıb.


❒ № 84 (5606), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 may 2022-ci il (çərşənbə axşamı)




## İlham Əliyev Kraliça II Elizabetə Qarabağ atı hədiyyə göndərdi

**12-15 may 2022-ci il tarixlərdə Böyük Britaniyada keçirilən ənənəvi "Vindzor Kral Atçılıq Şousu" tədbirləri çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kraliçası II Elizabetə Azərbaycan Atçılıq Federasiyasının prezidenti Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyətini Vindzor sarayında qəbul edib.**

"Vindzor Kral Atçılıq Tədbirləri" çərçivəsində Azərbaycan təmsilçilərinin çıxışlarını hər zaman böyük maraqla izləyən Ülyahəzrət Kraliçaya Azərbaycan Prezidenti cənab İlham Əliyevin hədiyyəsi - "Şöhrət" adlı Qarabağ atı təqdim olunub.

(səh.2)

## Azərbaycanın Xarkovdakı Fəxri Konsulluğu fəaliyyətini bərpa edib



**Azərbaycanın Xarkovdakı Fəxri konsulluğu fəaliyyətini bərpa edib.**

APA-nın xəbərinə görə, bu barədə Fəxri konsulluğun rəsmi saytında məlumat yerləşdirilib.

Qeyd edilib ki, artıq bir neçə gündür ki, Ukraynanın Xarkov şəhərində sakitlikdir, ictimai nəqliyyat marşrutlara çıxır, şəhərə həyat qayıdır.

Nəzərə çatdırılıb ki, Fəxri konsulluğun Yaroslav Mudrova küçəsi, 7 ünvanında yerləşən binasına ziyan dəyib və kommunikasiyanın bərpası tələb olunur.

Bununla əlaqədar bu gündən Fəxri konsulluq yeni ünvanda - Lyudmila Qurçenko küçəsi, 3-D ünvanında yerləşir.

# "Əziyyət çəkib gəlməsinlər"

### Ərdoğan: "Finlandiya və İsveçin NATO-ya üzvlüyünə "hə" deyə bilmərik"




**İsveç və Finlandiyanın terror təşkilatlarına dair açıq və aydın mövqeləri yoxdur, hətta terrorçuları Türkiyəyə təslim etməyəcəyik deyə açıqlamaları var.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan əlcəzairli həmkarı Abdulməcid Tebbune ilə birgə mətbuat konfransında deyib.

Dövlət başçısı İsveçin terror təşkilatları üçün mərkəz olduğunu qeyd edərək, Türkiyənin bu iki ölkəyə inamının olmadığını vurğulayıb: "Türkiyə gələcəklər. Nəyə gəlirlər? Bizi inandırmağa? Üzrlü saysınlar, əziyyət çəkməsinlər. Türkiyəyə qarşı sanksiya tətbiq edən ölkələrin təhlükəsizlik təşkilatı olan NATO-ya daxil olmaqlarına "hə" deyə bilmərik. (apa) Onda NATO təhlükəsizlik təşkilatı deyil, terrorçuların təmsilçilərinin çoxaldığı bir yer olar. Biz buna "hə" deyə bilmərik".

# Paşinyan sələflərinin səhvlərini təkrarlayır

### Baş nazirin əsassız iddiaları göstərir ki, Ermənistanın sülh prosesi üçün hərəkətə keçməsi sual altındadır



**Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinin getdiyi, Bakının bu istiqamətdə qətiyyətli addımlar atdığı bir vaxtda Baş nazir Nikol Paşinyan növbəti dəfə absurd iddialarla çıxış edib.**

Niderland səfəri zamanı keçirdiyi görüşlərdə Azərbaycanın ərazilərini 30 il işğalda saxlayan, minlərlə günahsız azərbaycanlının ölümünə, itkin düşməsinə səbəb olan Ermənistanın "humanist addımlarından" dəm vurub.

Baş nazir özündə Azərbaycanı qeyri-humanist mövqe tutmaqda ittiham etmək cəsarəti də tapıb.

(səh.4)




## Son sutkada yoluxma və ölüm qeydə alınmayıb

### 5 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına yeni yoluxma faktı qeydə alınmayıb, 5 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında da ölən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 673 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 917 nəfər müalicə olunaraq sağalıb, 9 709 nəfər vəfat edib, aktiv xəstə sayı 47 nəfərdir.

## PUA-larla təlim-məşq uçuşları keçirilib



**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına uyğun olaraq pilotsuz uçuş aparatları (PUA) ilə təlim-məşq uçuşları icra edilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib. Xəbərə görə, hərbi qulluqçuların əvvəlcə nəzəri və praktiki bilikləri, eləcə də simulyasiya trenajorlarında pilotsuz uçuş aparatlarının (PUA) idarə edilməsi üzrə bacarıqları yoxlanılıb. Təlimlər çərçivəsində pilotsuz uçuş aparatları (PUA) heyətləri müxtəlif hündürlüklərdə ərazi kəşfi apararaq şərti düşmənin yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və əldə edilən məlumatların idarəetmə məntəqələrinə ötürülməsi üzrə tapşırıqları yerinə yetiriblər. Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən təlimlərin əsas məqsədi heyətlərin praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

## Quru sərhədlər açılır

### Azərbaycanda vaksin pasportları ləğv edilir



**May ayından etibarən qapalı məkanlarda maska tələbinin aradan qaldırılması və quru sərhədlərin açılması ilə əlaqədar söyləntilər mövcuddur.**

Bakupost.az xəbər verir ki, TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanov da bu istiqamətdə açıqlama verib.

Maraqlıdır, maska məhdudiyyətinin aradan qaldırılması ilə bərabər, vaksin pasportunun ləğvi də aktual ola bilərmi?

(səh.2)



## Monopoliya imkan vermir

### Yoxsa ölkədə qiymətlər xeyli ucuzlaşa bilər

(səh.3)



## Ermənistana hərbi təzyiq artırılmalıdır

### Sülh danışıqlarını bu şəkildə irəliyə aparmaq qeyri-mümkündür

(səh.3)



# Əməkdaşlığı genişləndirmək üçün perspektivlər mövcuddur

## Prezident İlham Əliyev Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, ilk növbədə siyasi sahədə uğurla inkişaf etdiyini vurğuladı, bu işdə iki ölkənin dövlət başçıları arasında münasibətlərin xüsusi önəm daşıdığını qeyd etdi və bu baxımdan Özbəkistana səfərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev tarixi, dil və mədəni yaxınlığın münasibətlərimizin möhkəmlənməsi üçün əsas yaratdığını bildirdi.

İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı ticarət dövriyyəsinin səviyyəsinin artırılmasının önəmini qeyd etdi və bunun üçün yaxşı imkanların olduğunu vurğuladı. Həm Azərbaycanda, həm də Özbəkistanda nəqliyyat infrastrukturu sahəsində böyük işlərin görüldüyünü deyən Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi və nəqliyyat dəhlizlərinin tam şəkildə işə salınması üçün perspektivlərin mövcud olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi sahədə qazandığı nailiyyətləri də qeyd edərək qarşılıqlı sərmayə qoyuluşu və digər ölkələrdəki layihələrə birgə sərmayə yatırılması imkanlarının da nəzərdən keçirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın və Özbəkistanın qanunverici orqanları arasındakı münasibətlərə toxunaraq, qarşılıqlı səfərlərin və beynəlxalq parlamentlərarası strukturlardakı əlaqələrimizin bu sahədə əməkdaşlığa töhfə verdiyini bildirdi.

Türk Dövlətləri Təşkilatında əməkdaşlıq məsələlərinə toxunan dövlətimizin başçısı bu təşkilat çərçivəsində iş birliyimizin ölkələrimizin qardaşlığı və tarixi dostluğundan, mədəni köklərdən irəli gələrək təbii əməkdaşlıq xarakteri daşıdığını vurğuladı və bu baxımdan Özbəkistanın bu təşkilata tamhüquqlu üzv olmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev digər beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də uğurlu əməkdaşlığın və ölkələrimizin qarşılıqlı dəstəyinin önəminə toxundu.

Dövlətimizin başçısı xüsusi olaraq qeyd etdi ki, qardaş türk dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsinə münasibəti ölkəmiz tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın beynəlxalq əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə yaxşı münasibətlərə malik olduğunu vurğulayaraq, Azərbaycan tərəfinin Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif etdiyini bir daha xatırlatdı.

Dövlətimizin başçısı Nurdinjon İsmoilovun səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

**Xoş sözlərə görə minnətdarlığını bildirən Nurdinjon İsmoilov ilk növbədə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.** Eyni zamanda, o, Özbəkistanın dövlət başçısının 28 May - Müstəqillik Günü ilə bağlı təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi. Nurdinjon İsmoilov Şavkat Mirziyoyevin Prezident İlham Əliyevin Özbəkistana səfərini gözlədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Nurdinjon İsmoilov bildirdi ki, Özbəkistan Prezidenti böyük siyasi xadim ulu öndər Heydər Əliyevin xatirəsini daim ehtiramla yad edir və Prezident İlham Əliyevin Ümummilli Liderin siyasətini uğurla davam etdirdiyini bildirir. Qonaq Ulu Öndərin bütün həyatını Azərbaycanın inkişafına həsr etmiş siyasi xadim olduğunu vurğuladı.

Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədri Bakıda gördüyü inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını qeyd etdi və ölkəmizin qazandığı nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

# İlham Əliyev Kraliça II Elizabetə Qarabağ atı hədiyyə göndərdi

## Britaniya səfiri Azərbaycana təşəkkür etdi



**12-15 may 2022-ci il tarixlərdə Böyük Britaniyada keçirilən ənənəvi "Vindzor Kral Atçılıq Şousu" tədbirləri çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kraliçası II Elizabetə Azərbaycan Atçılıq Federasiyasının prezidenti Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyətini Vindzor sarayında qəbul edib.**

"Vindzor Kral Atçılıq Tədbirləri" çərçivəsində Azərbaycan təmsilçilərinin çıxışlarını hər zaman böyük maraqla izləyən Ülyahəzrət Kraliçaya Azərbaycan Prezidenti cənab İlham Əliyevin hədiyyəsi - "Şöhrət" adlı Qarabağ atı təqdim olunub.

Kraliçaya hədiyyə olunan at Vindzor qəsrinə gətirilərək haqqında bütün məlumatlar əks olunan sertifikatla birgə yeni sahibinə təhvil verilib.

Daha sonra Azərbaycanın tanınmış heykəltaraşı Faiq Hacıyevin yaratdığı "Alxan" adlı Qarabağ, "Qalxan" adlı Dilbaz atlarının heykəlləri Ülyahəzrət Kraliçaya hədiyyə olunub.

Ülyahəzrət II Elizabet hədiyyəyə görə təşəkkürlərini ifadə etmiş, "Vindsor Kral At Şousu" tədbirlərində ənənəvi iştiraka görə minnətdarlığını bildirib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Azərbaycan Prezidentinin hədiyyəsi olan Qarabağ atının Kraliça II Yelizavetaya təqdim olunması ilə bağlı Azərbaycana təşəkkür edib.

Bu barədə səfir özünün tvitter hesabında yazıb.

"Azərbaycana təşəkkür edirik", - deyə o bildirib.

# Quru sərhədlər açılır

## Azərbaycanda vaksin pasportları ləğv edilir



**May ayından etibarən qapalı məkanlarda maska tələbinin aradan qaldırılması və quru sərhədlərin açılması ilə əlaqədar söyləntilər mövcuddur.**

**Bakupost.az xəbər verir ki, TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanov da bu istiqamətdə açıqlama verib.**

Maraqlıdır, maska məhdudiyyətinin aradan qaldırılması ilə bərabər, vaksin pasportunun ləğvi də aktual ola bilərmi?

Mövzu ilə bağlı danışan deputat Cavanşir Paşazadə "sfera.az"a iyundan etibarən vaksin pasportunun da ləğv edilə biləcəyini deyib:

"Bu gün Azərbaycanda yoluxma sayı çox aşağıdır və demək olar ki, pandemiya yoxdur. Azərbaycan dövləti tərəfindən koronavirusla əlaqədar bütün məsələlərə vaxtında diqqətlə yanaşıldı və yetərli miqdarda vaksin gətirildi.

Dövlətin bu işdə tam nəzarətinin olması, insanların qaydalara riayət etməsi yoluxma sayının minimuma enməsi ilə nəticələndi. Ola bilsin ki, mayın 1-də maska məhdudiyyətinin aradan qaldırılması və quru sərhədlərin açılması ilə bağlı qərar qəbul edilsin.

Vaksin pasportlarının ləğvi Azərbaycanda da həyata keçirilməlidir. Artıq ölkədə karantin qaydalarının yumşaldılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Bu baxımdan vaksin pasportunun da iyundan etibarən ləğv edilməsi ağlabatan məsələdir. Avropa bu pasportun ləğvi ilə bağlı qərar qəbul etdikdən sonra bizdə də belə bir sənədə gərək qalmayacaq".

# İTV-nin baş direktorluğu üçün 8 nəfər sənəd verib

**İctimai Televiziya və Radio Yayımları Şirkəti baş direktorunun səlahiyyət müddətinin başa çatması ilə əlaqədar bu vəzifəyə seçilmək üçün namizədlərin sənədlərinin qəbulu başa çatıb.**

Audiovizual Şuradan APA-nın sorğusuna cavab olaraq bildirilib ki, İctimai Televiziya və Radio Yayımları Şirkəti baş direktoru vəzifəsinə 8 nəfər iddiaçı - Nəsirov Rəşad Barat oğlu, Məmmədzadə Tural Sahib oğlu, Həsənov Anar Bəybala oğlu, Abbasova Təranə Süleyman qızı, Qasımov Balakişi Ələkbər oğlu, Əliyev Ədalət İsaxan oğlu, Əlizadə Üzeyir Əli oğlu və Nağıyev Anar Əlişah oğlu sənədlərini təqdim edib.

"İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 20.1.3-cü və 21.1-ci maddələrinin tələblərinə uyğun olaraq namizədin seçilməsi üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti baş direktoru vəzifəsinə namizədlərin sənədləri İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına təqdim edilib.

# Putin MDB-yə KTMT-də müşahidəçi statusu verilməsini təklif edib



**Rusiya prezidenti Vladimir Putin MDB-yə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) müşahidəçi statusu verilməsini təklif edib.**

Trend-in məlumatına görə, o, bu sözləri KTMT-nin Moskvada keçirilən sammitində deyib.

"Bizim Şanxay Əməkdaşlıq Təşkilatı və Müstəqil Dövlətlər Birliyi üzrə tərəfdaşlarımızla qarşılıqlı fəaliyyəti genişləndirməyimiz lazımdır. Yeri gəlmişkən, fikrimizcə, MDB-yə KTMT-də müşahidəçi statusunun verilməsi uyğun olardı. Biz bu məsələni müzakirə etməliyik", - deyə o bildirib.

# Mərkəzi Bank sədrinin yeni müşaviri təyin olunub

**Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımovun yeni müşaviri təyin olunub.**

Bu məlumatı Mərkəzi Bankda təsdiq ediblər.

Müşavir vəzifəsinə Fərhad Vəliyev təyin olunub. O, bu vəzifəyədək "PAŞA Bank"ın İnzibatçılıq şöbəsini rəhbəri olub.

*Xatırladaq ki, Taleh Kazımov aprelin 13-də Azərbaycan Prezidentinin sərəncamı ilə Mərkəzi Bankın sədri təyin olunub.*





# Bütün dünya yeni çağırışlara hazırlaşır

## Bakıda İƏT PA-nın konfransının keçirilməsi böyük əhəmiyyətə malikdir

**Mayın 17-də Bakıda Milli Məclisin inzibati binasında İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransı keçiriləcək. Tədbirdə Türkiyə, Pakistan, İran, Qazaxıstan, Özbəkistan, Tacikistan və Qırğızıstanın parlament rəhbərlərinin başçılığı ilə nümayəndə heyətləri iştirak edəcəklər.**

Bildirilib ki, iştirakçılar əvvəlcə İƏTPA-nın İcraiyyə Şurasının, həmçinin qurumun Ticarət və İqtisadi Əməkdaşlıq Təşkilatı Ticarət Sazişi üzrə, Kommunikasiya və əlaqələndirmə üzrə və Qadın, gənclər və mədəni məsələlər üzrə komitələrinin iclasları keçiriləcək. Konfransda "Post-pandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" mövzusu müzakirə olunacaq. Post-pandemiya dövründə görüləcək işlər barədə fikir mübadiləsi aparılacaq. Məlumat üçün bildirək ki, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop başda olmaqla digər respublikaların da parlament sədrləri İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının konfransında iştirak etmək üçün mayın 16-da Azərbaycan Respublikasına səfərə gəliblər.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə bildirib ki, pandemiya səbəbindən dünya iqtisadiyyatında ciddi tənəzzül müşahidə olunurdu.** Deputatın sözlərinə görə, pandemiya iqtisadiyyatın inkişafı ilə yanaşı, mühüm tədbirlərin keçirilməsinə də imkan vermirdi: "Pandemiya arxada qalıb, biz gələcəyə baxmalıyıq. Perspektivlə bağlı proqramımızı, layihələrimizi müəyyənləşdirməliyik. O baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransı çox əhəmiyyətlidir. Konfrans çərçivəsində Qarabağda gedən bərpa-quruculuq işlərinin miqyası, genişləndirilməsi də nəzərdən keçiriləcək. Postpandemiya dövrü özü ilə yeni çağırışlar da gətirib. Bütün dünya, o cümlədən bizim ölkə bu çağırışlara tam hazır olmalıdır. Yeni əməkdaşlıq imkanlarını yeni platformalar fonunda dəyərləndirməli və reallaşdırmalıyıq. O səbəbdən İƏT-in PA-nın konfransı ölkəmizin iqtisadiyyatının güclənməsinə öz töhfəsini verəcək".

**İsmayıl Qocayev**

# Müharibə Rusiyanın sərhədlərinə yaxınlaşır

## Kreml Ukraynadan sonrakı hədəflərinə təkbaşına getmək istəmir



**"Rusiya ilə Ukrayna arasında müharibənin davam etməsi nə Moskvanın, nə də Qərbin ambisiyalarını sıradan çıxarır. Əksinə, hər keçən gün tərəflər biri digərini neytrallaşdırmaq üçün müxtəlif strategiyalar işləyib hazırlayırlar".**

*Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Rusiya hazırda təklənmiş durumdadır və öz orbitinin sıralarını Ukraynaya qarşı genişləndirmək üçün dəridən-qabıqdan çıxır.* Elə bu səbəbdəndir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvlərinin artırılmasının riyazi hesablamalarını aparır və əldə etdiyi bərabərlik işarələrini Belarus tərəfinə ötürür: "Belarusun müdafiə naziri Viktro Xrenin bildirib ki, gələcəkdə KTMT-nin sıraları genişlənəcək. O, mövqeyini sühə və sabitliyə töhfəverici ideya kimi interpretasiya etmək istəsə də, bu, pərdəarxası məqamlarda daha təhlükəli ssenarilərin masada olduğundan xəbər verir. KTMT Rusiyanın çətiri altında olduğundan, Moskva təşkilatın üzvlərinin çoxalması ilə üç istiqamət üzrə hesablama aparır. Ukraynadakı müharibənin davam edəcəyi "müjdəsi" verilir. Bununla da, Rusiya müharibənin daha çox ölkələrə təsir edəcəyi rəyi yaradacaq və onlara real təhlükə olduğu fikrini aşılayacaq. Amma Rusiyanın siyasi cəhətdən beynəlxalq təcridi və Moskvadan gələn təhlükələr ölkələri daha ehtiyatlı davranmağa vadar edəcək və onların KTMT-yə üzvlüyündə mümkünlük dərəcəsi aşağı enəcək. Rusiya Ukraynadan sonrakı hədəflərinə təkbaşına getmək istəmir, necə deyərlər, "cəhənnəmə gedən özünə yoldaş axtarır". Əgər KTMT ailəsinə qoşulanların sayı artsa, Rusiya NATO-ya qarşı onları da qoyacaq. Rusiya ola bilsin ki, Ukraynadakı müharibənin öz sərhədlərinə çatacağını və Rusiyaya hücum olacağı planlarını düşünür, hərçənd ki, bu versiya zəifdir. Önsüz da, Rusiya sərhədlərinə təhdid yaransa, KTMT öz Nizamnaməsinin 4-cü bəndinə əsasən kollektiv müdafiə yaratmalıdır. Lakin təşkilat daxilində bu ideyalardan sapmalar da müşahidə edilə bilər".

**Ekspertə görə, bütün mühakimələr nəticə etibarı ilə bir-birilə bağlıdır:** "Rusiya dəfələrlə Azərbaycanı KTMT-də üzv kimi görmək istədiyini dilə gətirib. Lakin Bakı Qərblə Rusiya arasındakı incə balanslaşdırma siyasətinin ruhuna uyğun davranaraq təşkilata üzvlük barədə düşünmür. Rusiya çalışır ki, Azərbaycan heç olmasa, müşahidəçi qismində təşkilatda təmsilçilik hüququna yiyələnsin, hərçənd ki, bu da çətin məsələdir. Hazırda Rusiyanın arzusunda olan ölkələr sırasında İranın KTMT-də iştirakı daha inandırıcı səslənir. İranın Rusiyadakı səfiri Kazım Cəlali KTMT məsələsinə vurğu etməsə də, onun ölkəsi ilə Moskva arasında hərbi-texniki əməkdaşlığa dair verdiyi açıqlama maraq oyadır. Hesab etmək olar ki, İranın da, Rusiyanın da beynəlxalq aləmdə təklənməsi bu iki ölkənin yeni platformada səylərini birləşdirəcək. Amma İranın quruma üzvlüyü yox, müşahidəçi qismində töhfəsi daha real görünür".

**İsmayıl**



Açılışda Azərbaycan və Türkiyə liderlərinin iştirakı isə iki ölkənin qardaşlıq münasibətlərinin dünyaya daha bir nümayişidir.

**Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hikmət Babaoğlu "Şərq"ə deyib ki, Türkiyə-Azərbaycan münasibətləri dünya ölkələri arasında bənzəri olmayan münasibətlərdir.** Deputat vurğulayıb ki, ikili münasibətlər prezidentlər - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi strateji siyasət sayəsində hər iki qardaş xalqın maraqları kontekstində durmadan inkişaf edir: "Hava limanının açılış mərasimində iki qardaş ölkənin prezidentlərinin birgə iştirakı ölkələrimiz arasında olan qardaşlıq və strateji müttəfiqlik münasibətlərimizin göstəricisidir. Eyni zamanda ön Asiyadan Qafqazlar və Orta Asiyaya qədər uzanan böyük etnosiyasi coğrafiyada nəqliyyat kommunikasiya xətlərinin yaradılması baxımından olduqca əhəmiyyətli hadisədir. Hazırda Türkiyə-Azərbaycan tandemi iqtisadi-siyasi və mədəni-humanitar sahədə geniş geostrateji rayonda təyinedici faktordur. Açılan hər yeni hava limanı, yaradılan hər müəssisə regional inkişaf və inteqrasiyaya xidmət edir. Bir nüddət öncə işğaldan azad edilmiş ərazilərimizdə inşa edilən Füzuli hava limanında qardaş ölkənin prezidenti, cənab Rəcəb Tayyib Ərdoğanın da iştirak etməsi iki qardaş ölkənin tarixi-təbii müttəfiqliyinin bütün sahələrdə inkişaf etdirilməsi əzminin göstəricisi idi".

**Parlament üzvü vurğulayıb ki, 2021-ci il iyun ayının 15-də Şuşada imzalanan Şuşa Bəyannaməsi iki hərbi-strateji kontekstdə Türkiyə-Azərbaycan münasibətlərinin dövlətçilik tarixində mühüm bir hadisə idi:** "Bu bəyannamə "Bir millət iki dövlət" anlayışının real dövlətlərarası münasibətlərdə rəsmiləşdirilməsi kimi də qəbul edilə bilər. Eyni zamanda Şuşa Bəyannaməsi hazırkı mürəkkəb tarixi mərhələdə hər şeydən öncə milli təhlükəsizliyimiz baxımından strateji çağırış idi. Yeni açılan Rize-Artvin hava limanı Türkiyə ilə Azərbaycan arasında məsafəni bir qədər daha qısaltmış oldu. İki ölkəni məsafə baxımından daha da yaxınlaşdırdı. Rize-Artvin hava limanı Türkiyənin Qafqaza açılan yeni səma qapısı oldu. Bu isə həm ticarətin asanlaşdırılması və yüklərin daha qısa müddətdə çatdırılması, həm də turizm mübadiləsi və mədəni əlaqələrin daha da dərinləşməsi baxımından yeni imkanlar və perspektivlər deməkdir".

# Türkiyə-Azərbaycan qardaşlığı tarix yazır

## Açılan hər yeni hava limanı, yaradılan hər müəssisə regional inkişaf və inteqrasiyaya xidmət edir

İsmayıl Qocayev

**Mayın 14-də Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimi keçirilib. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə rəhbəri Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Yeni hava limanına ilk dəfə göyərtələrində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin olduqları təyyarələr eniş edib.**

Dövlət başçıları açılış mərasimində çıxış ediblər. Liderlərə xatirə hədiyyələri təqdim olunub. Sonra hava limanının açılışını bildirən rəmzi lent kəsilib. Qeyd edək ki, təməli 2017-ci il aprelin 3-də Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulan Rize-Artvin Hava Limanı Türkiyədə Ordu-Giresun aeroportundan sonra dənizin doldurularaq inşa edildiyi ikinci, dünyada isə beşinci hava limanıdır. Rize şəhərinə 34, Artvin şəhərinə isə 125 kilometr məsafədə yerləşən bu aeroport Türkiyənin 58-ci hava limanıdır. Bu hava limanının tikintisi üçün dəniz sahəsinə ümumilikdə 100 milyon ton daşın tökülməsi ilə suyun qurudulması və möhkəmləndirmə işləri aparılıb. Rize-Artvin Hava Limanı ildə təxminən 3 milyon sərnişinə xidmət edəcək. Xatırladaq ki, hazırda Türkiyədə mövcud olan 58 hava limanından 37-də beynəlxalq uçuşlar həyata keçirilir. Rize-Artvin Hava Limanının bu sıraya daxil olması Qara dəniz sahili ölkələri ilə hava nəqliyyatı və gəmi-bərələrlə daşımalar və turizm üçün böyük imkanlar yaradır. Prezident İlham Əliyev hava limanının açılışındakı çıxışı zamanı bildirib ki, Azərbaycan Türkiyə ilə həm dost, həm qardaş, həm də artıq rəsmən müttəfiqdir. Ölkə rəhbəri bəyan edib ki, bu gün də biz bir yerdəyik, Qarabağın inşasında bərabər, çiyin-çiyinə çalışırıq: "Bir çox Türkiyə şirkətləri, o cümlədən bu gözəl Rize-Artvin Hava Limanını inşa edən şirkət də Qarabağda inşaat işləri ilə məşğuldur. Minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın inşası ilə bağlı öz işini görür, öz sözünü deyir". Prezident qeyd edib ki, Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir: "Ölkələrimiz çox böyük sınaqlardan keçib. Keçən il bizim tarixli və qədim şəhərimiz Şuşa şəhərində Türkiyə və Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırdı. Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik".

Səfər çərçivəsində liderlər arasında görüş də keçirilib. Görüşdə Azərbaycanla Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Söhbət zamanı siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilib. Bu baxımdan Şuşa Bəyannaməsinin önəmi xüsusi vurğulanıb. Dövlət başçıları energetika, nəqliyyat, enerji təhlükəsizliyi ilə bağlı əməkdaşlıq məsələlərini, həmçinin bölgədəki vəziyyəti müzakirə ediblər. Söhbət zamanı postmünaqişə dövrü, Azərbaycan ilə Ermənistan və Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb. Ekspertlərin fikrincə, Rize-Artvin Hava Limanının açılışını Türkiyənin gücünün, iqtisadi inkişafının daha bir göstəricisi hesab etmək olar.

# Müharibə uzanır...

## Avronun ucuzlaşması davam edəcək



**Avropa pulu dollara və digər əksər səbət valyutalara nisbətən dəyər itirməkdə davam edir.**

Rusiya-Ukrayna müharibəsi başlanan gün dollara nisbətən 1.13 məzənnəsi ilə dəyişdirilən arvo artıq 1.04 kursunadək ucuzlaşıb. Bu, avronun müharibə başladıqdan sonra 14 faiz dəyərsizləşməsi deməkdir.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, avronun ucuzlaşması daha çox sanksiyaların qarşılıqlı olaraq Avropa iqtisadiyyatına təsirləri ilə bağlıdır.** Lakin digər səbəb dolların qlobal valyuta bazarında möhkəmlənməsidir: "Bir tərəfdən enerji məhsullarının qiymətlərindəki artım real sektora təsirsiz ötüşmür. Digər tərəfdən, Avropa qitəsində davam edən müharibə ittifaq ölkələrinin iqtisadi artım faizlərini azaldıb. Bu ilin ilk 4 ayında Avropa İttifaqında enerji məhsullarının qiymətində 38 faiz artım qeydə alınıb. Ötən ay isə Avropa İttifaqında son 30 ilin ən yüksək infilyasiyası qeydə alınıb. İstehlak bazarında ümumi qiymət artımı 7.5 faizə yüksəlib. 2022-si il üçün 3.7 faiz artım proqnozlaşdırılan avrozonada ÜDM bu ilin birinci rübündə cüzi artıb. Bütövlükdə, müharibə uzanarsa, 2022-ci ildə iqtisadi artımın hətta 2 faizdən az olacağı gözlənilir".

Deputatın sözlərinə görə, müharibə uzandıqca avronun ucuzlaşması davam edəcək: "Hələlik Avropa Mərkəzi Bankı avronun məzənnəsinə təsir edəcək addımlar atmaqda israrlı görsənmir. Bu isə o deməkdir ki, hələlik avronun əvvəlki mövqelərinə qayıtması mövcud şərtlər daxilində real görsənmir. Müharibənin ən çox neqativ iqtisadi təsir etdiyi qitə isə sözsüz avronun işləndiyi Avropa olaraq qalmaqdadır".

**İsmayıl**

# Ermənistana hərbi təzyiq artırılmalıdır

## Sülh danışıqlarını bu şəkildə irəliyə aparmaq qeyri-mümkündür



**Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan İrəvanın Azərbaycana sülh sazişi üzrə danışıqlara başlamaq üçün təklif etdiyi 6 bəndi açıqlayıb. Müvafiq bəndlərdə qeyd olunur ki, Ermənistanın Azərbaycana qarşı heç vaxt ərazi iddiası olmayıb və yoxdur.**

İrəvan hökuməti BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və Beynəlxalq Mülki-Siyasi Paktı əsasında Azərbaycanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olduğunu bildirib. Lakin vurğulanıb ki, Ermənistan tərəfi üçün Qarabağ ermənilərinin təhlükəsizliyinin təmin edilməsi, həmçinin "Dağlıq Qarabağın yekun statusu"nun müəyyən edilməsi məsələləri prinsipial əhəmiyyət kəsb edir. Həmçinin, müvafiq danışıqların təşkili üçün Ermənistan tərəfinin ATƏT-in Minsk qrupunun həmsədrlərinə müraciət etdiyi qeyd olunub.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, erməni tərəfinin Azərbaycana təqdim etdiyi 6 bəndlik təklifin bəzi bəndləri Azərbaycan üçün qəbuledilməzdir. Ekspertə görə, bu yanaşma göstərir ki, rəsmi İrəvanın real "sülhə gəlməsi" polemikadır:** "Ermənistanın Azərbaycanla qisa müddətdə sülh müqaviləsini bağlaması real görünmür. Ermənistan "Qarabağın status" və "xalqların müqəddəratı"ndan danışır, bunların "prioritet" olduğunu iddia edir. Qarabağ ermənilərinin "hüquq və azadlıqlarından" dəm vurur. Görünür, Nikol Paşinyan daxildə müxalifətin etirazlarından çəkindiyi üçün əlavə bəndləri danışıqlara salmaq istəyir. Ermənistanın mövqeyi qəbuledilməzdir. Ermənistanın növbəti dəfə danışıqlarda praqmatik mövqe tutması üçün bu ölkəyə hərbi təzyiqlər artırılmalıdır. Erməni müxalifəti və Paşinyanın reallıqları tam mənada dərk etmələri üçün sərhəddə güc tətbiq olunmalıdır. Çünki danışıqları bu şəkildə irəliyə aparmaq qeyri-mümkündür. Əgər Ermənistan hakimiyyəti "Qarabağa status" deyib duracaqsa, sülh üçün bütün qapılar bağlanmalıdır".

**İsmayıl Qocayev**



# "Bakıda maşınların sayına görə tıxac yaranmır"

## Natiq Cəfərli: "Şəhərdə qeyri-effektiv idarə sistemi var"

**Tıxac məsələsi Bakının əsas problemlərindən birinə çevrilib. Sıxlıq yalnız şəhərin mərkəzində və pik saatlarda deyil, hətta şəhərin istənilən yerində, istənilən saatında yaranır.**

Dəfələrlə bu barədə mətbuatda, sosial şəbəkələrdə yazılıb, müzakirələr aparılsa da dəyişən bir şey yoxdur. Hətta şəhərin hansısa bir yolunda qəza baş verərsə, bu, demək olar ki, bütün yollardakı hərəkətə təsir edir, sıxlıq yaradır. Mütəxəssislərə görə, tıxacların əsas səbəbi avtomobil sayının artması, parklanma yerlərinin azlığı, marşrutlararası intervalın çox olması və s. amillərdir. Lakin bəzi ekspertlərin fikrincə, paytaxtda tıxacların başlıca səbəbi avtomobil sayından daha çox, yol infrastrukturunun düzgün qurulmaması ilə bağlıdır.

**İqtisadçı Natiq Cəfərli də hesab edir ki, Bakıda tıxac problemi maşınların sayında deyil, qeyri-effektiv idarəetmə sistemindədir. Onun sözlərinə görə, problem maşın sayında deyil, şəhərin infrastrukturunun zəlil günə qoyulmasındadır**: "2020-ci ilin məlumatlarına görə, Azərbaycanda hər 1000 nəfərə 126, Gürcüstanda 281, Ermənistanda 167 avtomobil düşür. Keçmiş "SSRİ" respublikaları arasında bu göstəriciyə görə biz 12-ci yerdəyik. Bizdən sonra Türkmənistan, Tacikistan və Özbəkistan gəlir. Ölkə avtomobil parkının 60 faizi 20 yaş və daha köhnə maşınlardır. Bu isə qəzalar zamanı ölüm və yaralanma hallarını artırır, köhnə maşınlar ekologiyaya da ciddi zərər vurur. Gömrük rüsumlarının yüksək olması ölkəyə yeni, müasir, təhlükəsiz, ekoloji az zərərli maşınların gətirilməsinə mane olur".

**N.Cəfərli bildirib ki, şəhərin baş planı olmadan tikinti meydançasına çeviriblər:** "Küçələr dar, körpülər mənasız, alt keçidlər azdır. Bütün bunlar tıxaclara, sıxlığa əsas səbəbdir. Cürcüstana çatmaq üçün bizdə indikindən 2,5 dəfə çox maşın olmalıdır. Belə infrastrukturla maşın sayı hər 1000 nəfərə 300 avtomobilə çatsa, Bakı sadəcə maşın sürülməsi mümkün olmayan şəhərə çevriləcək. Çıxış yollarından biri şəhərin boşaldılmasıdır. Universitetlər, bəzi nazirliklər, dövlət idarələri, Ali Məhkəmə, Konstitutsiya Məhkəməsi Bakıdan regionlara, əsasən də işğaldan azad edilmiş bölgələrimizə köçürülməlidir. Digər çıxış yolu isə Bakı Böyük Şəhər Bələdiyyəsinin və seçkili Mer institutunun təsisi, məsuliyyətin və səlahiyyətin təyin edilmişlərdən alınıb seçilmişlərə verilməsidir".

**İsmayıl**

# Monopoliya imkan vermir

## Yoxsa ölkədə qiymətlər xeyli ucuzlaşa bilər

Məlahət Rzayeva

**Dövlət Statistika Komitəsi ötən ay ölkədə bahalaşan və ucuzlaşan məhsulların siyahısını açıqlayıb.**

Məlumatda qeyd edilir ki, aprel ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma vaflinin, peçenyenin, unun, makaron məmulatlarının, düyünün, toyuq ətinin, kolbasa məmulatlarının, dondurulmuş balığın, qatılaşdırılmış şəkərli südün, pendirin, yoqurtun, süfrə marqarininin, günəbaxan və qarğıdalı yağlarının, heyvanın, narın, naringinin, almanın, armudun, soğanın, kartofun, bibərin, şəkər və şəkər tozunun, konfetlərin, çayın, qəhvə və kakao tozunun, kola içkisinin, meyvə şirəsinin, mineral suların, arağın qiymətində qeydə alınıb. Ucuzlaşma isə əsasən yumurtanın, qozun, fındığın, xiyarın, kələmin və çuğundurun qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.



"Bütün məhsulların bir anbara toplanıb oradan paylanması qiymətlərə mənfi təsir edir. Biz araşdırmışıq, anbardan marketlər şəbəkəsi, yaxud bazara çıxan bəzi məhsulların qiymətində 20-30 faiz artım var"

DSK-nin məlumatının reallığı əks etdirdiyi danılmazdır. Məlum məsələdir ki, havalar isindikcə yumurtanın qiyməti düşür. Bu, həmişə belədir. Qoz-fındıq "sezonu" da bitib. Kələm, çuğundura da tələbat azalıb. Payız-qış fəsli deyil ki, turşu qoyulsun, yaxud borş bişirilsin. Təzə tərəvəzlər qış tərəvəzlərinin qiymətini istər-istəməz aşağı salır. Bu kimi məhsullarda qiymət enməsi nə qədər təbii görünürsə, qiymətində artım olan, yaxud qiyməti enməyən məhsullarla bağlı bir o qədər sual yaranır. Un məmulatlarının qiymətindəki artımın səbəbi bəllidir. Bostan məhsulları, meyvələr də yeni-yeni yetişir və bazara "ayaq açır". İdxal məhsullarının qiymətinin bahalaşması da başadüşüləndur. Lakin elə məhsullar var ki, onlar ölkədə istehsal edilir. Az-çox yerli istehsal var, yəni. Məsələn, çay, qənd, şəkər tozu, günəbaxan, qarğıdalı yağı, marqarin, spred yağlar. Ötən ilin payızından anbarlara toplanmış alma, armud, heyva, nar... Bunlar ki köhnə məhsullardır, hamısı soyuduculardan çıxanlardı. Bu məhsulların qiymətini aşağı salmağa nə mane olur?

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında bildirdi ki, ərzaq mallarının qiymətinin enməməsinə, əksinə, bahalaşmasına bazardakı monopoliya səbəb olur:**

- Yerli məhsulların piştaxtaya sərbəst çatdırılma yolu, çox demirəm, bir balaca açılsa, sizi inandırıram, qiymətlərdə kəskin fərq görərik. Amma topdansatış məntəqələri buna imkan vermir. Bütün məhsulların bir anbara toplanıb oradan paylanması qiymətlərə mənfi təsir edir. Biz araşdırmışıq, anbardan marketlər şəbəkəsi, yaxud bazara çıxan bəzi məhsulların qiymətində 20-30 faiz artım var. Müəyyən təbəqə var ki, bu biznesdən külli miqdarda pul qazanır. Bu təbəqə məhsulun birbaşa bazara çıxmasının qarşısına süni əngəl yaradır. Baryer qurublar, imkan vermirlər ki, fermer yetişdirdiyi məhsulu sərbəst şəkildə bazara çıxarsın. Ona görə də yerində kiloqramı 10 qəpiyə alınan məhsul bazarda 2 manata satılır. Yəni biz məhsulları satış mərkəzlərindən 20-30 faiz baha qiymətə alırıq. İdxal məhsullarıyla da eyni vəziyyətdir. Hesablayırsan, gömrük rüsumu, əlavə dəyər vergisi və sair xərcləri, yenə də məhsulun maya dəyərindən çox-çox baha qiymətə satıldığı məlum olur. Məhsul baha qiymətə təqdim olunur. Topdansatış məntəqələri məhsulun birbaşa istehlakçıya çatdırılmasına mane olur.

F.İbrahimov qeyd etdi ki, bu məsələ İqtisadiyyat Nazirliyi yanında Dövlət Antiinhisar Xidmətinin diqqətində olmalıdır: - Onlar tədqiqat aparmalıdırlar, sahibkarlarla danışmalıdırlar ki, problemin nədən ibarət olduğunu bilsinlər və bunun qarşısını alsınlar. Amma heç bir iş görmürlər. Biz özümüz balaca tədqiqat aparmışıq və görmüşük ki, yeni məhsul - alça bir marketdə 8 manatadır, digər satış mərkəzində 3 manata. Bu boyda fərq niyə yaranır? Bunu Antiinhisar Xidməti araşdırmalıdır.

Yerli istehsal məhsullarının qiymətinin ucuzlaşmamasına gəlincə, F.İbrahimov bir neçə səbəb göstərdi:

- Doğrudur, yerli istehsal var. Ancaq idxal amili asılılıq yaradır. Müəssisələrdən soruşsaq, deyəcəklər ki, istehsal üçün hansısa komponentləri idxal edirlər. Yerli istehsal idxaldan asılılığı azalda bilmir. Digər səbəb dünya birjalarına inteqrasiya olunmağımızdı. Bu da birja qiymətlərindən asılılıq yaradır. Dünya birjalarının ardınca "düşmüşük". Orda qiymət qalxan kimi bizdə də qalxır. Reallıq budur ki, dünya bazarında bahalaşma gedir, buna müharibələr, iqtisadi sanksiyalar təsirini göstərir, bir tərəfdən panika qiymət artımını şərtləndirir. Hansısa dövlət ixracı dayandıran kimi qiymətlər avtomatik qalxır. Bu vəziyyətdən çıxmağın əlbəttə ki, yolları var. Monopoliya aradan qalxmalıdır. Məsələn, "Azərsun" monopolistdir. İstehsal bazarına başqa istehsalçının daxil olmasının qarşısını alır. Amma təmiz liberal iqtisadiyyat olsa və idxal amilindən asılılıq azalsa, vəziyyət müsbətə doğru dəyişər, əhaliyə də daha sərfəli, əlçatan qiymətlər təklif olunar.

# Paşinyan sələflərinin səhvlərini təkrarlayır

## Baş nazirin əsassız iddiaları göstərir ki, Ermənistanın sülh prosesi üçün hərəkətə keçməsi sual altındadır



İsmayıl Qocayev

**Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinin getdiyi, Bakının bu istiqamətdə qətiyyətli addımlar atdığı bir vaxtda Baş nazir Nikol Paşinyan növbəti dəfə absurd iddialarla çıxış edib. Niderland səfəri zamanı keçirdiyi görüşlərdə Azərbaycanın ərazilərini 30 il işğalda saxlayan, minlərlə günahsız azərbaycanlının ölümünə, itkin düşməsinə səbəb olan Ermənistanın "humanist addımlarından" dəm vurub.**

Baş nazir özündə Azərbaycanı qeyri-humanist mövqe tutmaqda ittiham etmək cəsarəti də tapıb. Mina məsələlərini alver predmetinə çevirməyə cəhd edib. Əslində, Paşinyanın iddiaları özünü gülünc vəziyyətə salmaqdır. Ermənistanın mina xəritələrini təqdim etməsi heç bir halda humanitar jest sayıla bilməz. Çünki 10 noyabr bəyanatını imzalamış Paşinyan üzərində beynəlxalq humanitar hüquq öhdəliyi götürüb, minadan təmizlənmə də bu öhdəliyin tərkib hissəsidir. Məhz Ermənistanın və onun rəhbərliyinin bu öhdəliyi yerinə yetirməməsi səbəbindən Vətən müharibəsindən sonra da Azərbaycan vətəndaşları işğaldan azad edilmiş ərazilərdə minaların qurbanı olmağa davam edirlər. Digər məqam isə ondan ibarətdir ki, Ermənistanın təqdim etdiyi mina xəritələrinin qeyri-dəqiqliyi artıq heç kimdə şübhə doğurmur. Azərbaycan dəfələrlə bu məsələni beynəlxalq səviyyədə diqqətə çatdırıb ki, Ermənistanın təqdim etdiyi xəritələrin dəqiqliyi ən yaxşı halda 25 faiz təşkil edir. Baş nazirin bununla öyünməsi, üstəlik Azərbaycanı buna qarşılıq verməməkdə ittiham etməsi isə sadəcə gülüncdür. Paşinyanın Azərbaycanı günahlandırmasına mənəvi və hüquqi haqqı yoxdur. Azərbaycan Xarici İşlər Nazirliyi də Ermənistan baş nazirinin absurd iddialarına cavab verib. Qeyd olunub ki, Ermənistan baş nazirinin Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar, o cümlədən humanitar məsələlərlə bağlı həqiqətdən uzaq ittihamlar İrəvanın normallaşma məsələsində səmimiyyətdən uzaq olduğunu göstərir: "Ermənistan tərəfi nəhayət başa düşməlidir ki, sülh üçün sadəcə danışmaq yox, hərəkət etmək lazımdır. Baş nazirin Azərbaycana qarşı hələ də əsassız iddialarla çıxış etməsi, bu ölkənin sülh üçün hərəkətə keçmək istəyini ciddi sual altına alır".

**Siyasi şərhçi Elçin Mirzəbəyli bəyan edib ki, Nikol Paşinyanın çıxışı sübuta yetirir ki, Ermənistan hakimiyyəti, bölgədəki reallıqları nəzərə almadan, hazırda ona qarşı çıxış edən sabiq prezidentlərin - müharibə cinayətkarlarının səhvlərini davam etdirmək niyyətindədir.** Analitik qeyd edib ki, Paşinyanın irəli sürdüyü iddia və ittihamlar əsassız və məntiqsizdir: "Bu iddialar Ermənistan üçün həyati əhəmiyyət kəsb edən Bakı-İrəvan münasibətlərinin normallaşması ilə bağlı prosesin irəliyə doğru aparılması üçün əldə olunmuş razılaşmalara ziddir. Azərbaycan torpaqlarını 30 ilə yaxın bir zaman kəsiyində viran qoyan, azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırım siyasəti həyata keçirən bir ölkənin humanitar dəyərlərdən, beynəlxalq humanitar hüququn norma və prinsiplərindən söz açması klassik erməni həyasızlığının növbəti nümunəsidir. Halbuki Ermənistanın vaxtilə işğal altında saxladığı Azərbaycan torpaqlarını humanitar fəlakət zonasına çevirdiyi hər kəsin gözü önündə olan və hər kəsin görə biləcəyi bir reallıqdır. Ermənistanın mövcud siyasi hakimiyyəti Azərbaycan ərazilərinə az qala "toxum" kimi səpilən minaların xəritələrini belə alver predmetinə çevirməklə müharibə cinayətkarları olan sələflərindən fərqlənmədiyini, antihumanizmin Ermənistanın dövlət siyasətinin əsasını təşkil etdiyini bir daha sübuta yetirdi. Təkcə Pasinyan deyil, Ermənistanın ondan öncəki rəhbərləri də çox yaxşı başa düşürdülər ki, Azərbaycan istənilən halda tarixi ədaləti bərpa edərək, işğala son qoyacaq. Məhz buna görə də uzun illərdən bəri Azərbaycan, türk düşmənçiliyi üzərində formalaşmış ultramillətçi, neofaşist ideyalarıyla zəhərlənmiş qanlı təşəkkürlərinin diktəsi altında azərbaycanlılara məxsus olan her şeyi məhv etmək niyyəti güdürdülər. Pasinyanın son iddiaları da sübuta yetirdi ki, bu niyyət hələ də dəyişməyib. Ermənilərin Kəlbəcər, Ağdam və Laçın ərazilərini əlavə minalaması, hətta təbiətə belə divan tutmaları Ermənistan və erməniliklə humanizm prinsiplərinin daban-dabana zidd olduğunun göstəricisidir. Ermənistanda hələ sovet dövründən tank və piyadalar əleyhinə mina istehsal edən zavod fəaliyyət göstərib. Görünür, SSRİ-nin hərbi-sənaye kompleksinə rəhbərlik edən şəxslər ermənilərin torpağın altında tələlər qurmaqda, hiylə işlətməkdə və digər xırda-para bicliklərdə "mahir" olduqlarını, klassik goreşənliklərini nəzərə alıblar".

*E.Mirzəbəylinin sözlərinə görə, Ermənistan acınacaqlı məğlubiyyətindən keçən təxminən 1,6 illik zaman kəsiyində qarşılıqlı münasibətlərin normallaşmasına xidmət edən könüllü heç bir addım atmayıb:* "Ölkəmizə təqdim edilən mina xəritələri də bu ölkənin öz istəyi ilə baş verməyib. Əksinə, ötən zaman kəsiyində rəsmi İrəvan nəyin bahasına olursa-olsun mina xəritələrinin Azərbaycana təqdim edilməsindən yayınmağa çalışıb. Azərbaycan ərazilərində aparılan çoxsaylı araşdırmalar, xarici ekspertlərin verdiyi rəylər rəsmi İrəvanın mina xəritələrini ölkəmizə təqdim etmək məcburiyyətində qoydu. Hətta bu halda da Ermənistanın təqdim etdiyi xəritələrin qeyri-dəqiqliyi problemin həllinə ciddi təsir göstərmədi".



# Putinə qarşı çevriliş planı hazırlanır

## Ukraynalı general-mayor Rusiyanın ilin sonuna qədər məğlub olacağını iddia edib

**Rusiya Prezidenti Vladimir Putini devirmək üçün çevrilişin planlaşdırıldığı irəli sürülüb. Ukraynalı general-mayor Kirilo Budanov müharibənin Rusiyanın məğlubiyyəti ilə nəticələnəcəyini və bununla Putinin hakimiyyətinin sonu olacağını iddia edib.**






"Şərq" qəzeti Türkiyənin "www.ntv.com.tr" saytına istinadən xəbər verib ki, general-mayor Kirilo Budanov Rusiyanın hərbi məğlubiyyətinin Putinin devrilməsi və nəticədə ölkənin dağılması ilə nəticələnəcəyini irəli sürüb: "Bu, sonda Rusiya Federasiyasının rəhbərliyinin dəyişməsinə gətirib çıxaracaq. Bu prosesə artıq start verilib".

Putinin öz rejimini "çevrilişlərə davamlı" etmək üçün onilliklər sərf etdiyi məlumdur. Budanovun fikrincə, zəif hərbi performans, aşağı əhval-ruhiyyə və çətin iqtisadiyyat Putinə qarşı çevriliş ehtimalını artırır. Budanov Putinin "çox pis psixoloji və fiziki vəziyyətdə olduğunu və çox xəstə olduğunu" iddia edib.

Budanovun iddiası Kremllə yaxından əlaqəsi olan, adı açıqlanmayan rusiyalı oliqarxın Putinin "qan xərçəngi" olduğunu bildirməsindən sonra ortaya çıxıb. Rusiya liderinin sağ olub-olmaması ilə bağlı çoxlu fərziyyələr var. Aprelin sonunda Putinin "nəzarətsiz şəkildə" titrəməsinin videogörüntüləri onun Parkinson xəstəliyinə tutulması ilə bağlı şübhələri artırıb.

Budanov Rusiyanın ilin sonuna qədər məğlub olacağını və növbəti avqustun ortalarının müharibədə mühüm dönüş nöqtəsi olacağını proqnozlaşdırıb. Qanlı müharibədə Ukraynanın perspektivləri ilə bağlı "nikbin" olduğunu bildirən Budanov, "qırılma nöqtəsi avqustun ikinci yarısında olacaq" deyib".

**İsmayıl**



# Yaqut xanımın əməli alqışlandı

## Məktəb rəhbəri liderlik xüsusiyyətlərinə cavab verməlidir



**Məktəb minlərlə müəllim və şagirdi özündə birləşdirən böyük bir ailədir. Ailənin rəhbəri sayılan direktorun əsas vəzifəsi isə məktəb üçün düzgün istiqamətlər müəyyənləşdirmək, kreativ düşünən müəllimləri dəstəkləməkdir.**

Lakin bəzən məktəb direktorlarının kobud davranışları tənqid hədəfinə çevrilir. Bu sayaq xəbərlər qəzet və sayt manşetlərini "bəzəyir". Bu dəfə isə məktəb direktorunun addımı tənqid deyil, təqdir edilib. Hətta rəğbətlə qarşılanıb.

Bakı şəhər Yasamal rayonunda yerləşən 13 saylı məktəbin direktoru Yaqut Sadıqovanın yer aldığı görüntülər sosial şəbəkədə böyük marağa səbəb olub.

Sözügedən kadrlarda direktorun xadimələrlə birlikdə məktəbin bağçasında təmizlik işləri aparması görüntüləri yer alıb. Direktorların çox zaman birmənalı qarşılanmayan addımlarına şahid olan ictimaiyyət bu görüntünü alqışlayıb.

**Mövzu ilə bağlı "Şərq"ə danışan təhsil eksperti Elçin Əfəndinin qənaətincə, məktəb rəhbəri liderlik xüsusiyyətlərinə cavab verməlidir:**

"Bütün kollektiv üçün nümunəvi davranmalıdır. Hər hansı iş görülürsə, məktəb direktoru da qollarını çırmalayıb əlini yetirirsə, istənilən durumda təqdirəlayiqdir. Bəziləri müxtəlif fikirlər səsləndirir. Ən azından "o bunu edir" prizmasından yanaşmaq daha yaxşıdır.

Yaqut xanımın son dövr gördüyü işləri özüm təqdir edirəm. Düşünürəm ki, təkcə Yaqut xanım yox, digər məktəb direktorları da bu tip məsələlərdə həmrəylik göstərməlidir. Direktor sadəcə otağında əyləşib göstəriş verməməlidir".

**Aygün Tahir**

# İsveç və Finlandiya terror təşkilatlarına açıq dəstək verir

## Türkiyə bu ölkələrin NATO-ya üzv qəbul olunmasına qarşı çıxmasında tam haqlıdır

İsmayıl Qocayev

**İsveç və Finlandiya NATO-ya üzvlüklə bağlı rəsmən qərar qəbul ediblər. Almaniyanın Xarici işlər naziri Annalena Berbok deyib ki, əgər təşkilata üzv olmaq üçün müraciət edilsə, Almaniya müvafiq sənədləri dərhal ratifikasiya edəcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Finlandiya və İsveçin NATO-ya daxil olması imkanını müsbət hesab etmədiyini deyib.**

Onun sözlərinə görə, Skandinaviya ölkələri terror təşkilatları, o cümlədən PKK üçün "qonaq evidir". Həmçinin, Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Türkiyə vətəndaşlarının əksəriyyətinin bu ölkələrin NATO-ya daxil olmasını istəmədiyini və Ankaradan prosesin qarşısını almağı xahiş etdiyini bildirib. O, bu məsələni alyansdakı müttəfiqləri, eləcə də Helsinki və Stokholmla müzakirə etmək niyyətində olduğunu vurğulayıb: "Türkiyə hər zaman "açıq qapı" siyasətinin tərəfdarıdır. Gürcüstan, Ukrayna və Bosniya və Hersoqovinanın üzvlük məsələsinə bir çox ölkə qarşı olduğu zaman Türkiyə onlara dəstək olub. İsveç və Finlandiyanın üzvlüyü ilə bağlı mövqeyimizi Prezident Ərdoğan ortaya qoyub. Biz NATO-nun genişləndirilməsinə qarşı olduğumuz üçün deyil, terror təşkilatlarına dəstək verən ölkələrinin alyansa üzv ola bilməmələrinə inandığımız üçün bu mövqedəyik. Bu iki ölkə terror təşkilatlarının üzvləri ilə görüşlər aparır, biz bu məlumatları müttəfiqlərimizə təqdim etdik. Biz onlarla da görüşdüyümüz zaman narahat olduğumuz mövzuları bir daha açıq şəkildə söylədik. Bundan əlavə, bu iki ölkə Türkiyəyə qarşı hərbi ixracatda məhdudiyyətlər tətbiq edir, amma NATO çərçivəsində olacaq müttəfiqlərin bunu etməsi yanlış olar".

Bundan əlavə, Mövlud Çavuşoğlu İsveç xarici işlər nazirinin bu məsələ ilə bağlı açıqlamalarının yolverilməz, finlandiyalı həmkarının yanaşmasını isə real və müsbət olduğunu qeyd edib: "Türkiyənin narahatlığının aradan qaldırılması istiqamətində Alyans çərçivəsində işləmək təklifi irəli sürülüb". Ankara bəyan edib ki, İsveç və Finlandiya Türkiyənin qırmızı xətti olan PKK-ya açıq dəstək göstərir, xeyli sayda FETÖ terrorçularına bu ölkədə yaşam haqqı verirlər. İsveç 2021-ci ildə rəsmən PKK-nın Suriya qolu YPG-yə 221 milyon avro yardım edib. Bir qrup terrorçu İsveç parlamentində qəbul edilib, terrorçulara parlamentdə çıxış imkanı verilib. Türkiyənin bu məsələdə geri addım atması inandırıcı olmasa da, İsveç və Finlandiyanın Türkiyəyə hansı təkliflər irəli sürəcəyi maraqlıdır. Rəsmi Ankara Finlandiya və İsveçin NATO-ya daxil olması qarşılığında F-35 proqramına qaytarılması, ölkədəki miqrantlar qarşılığında Qərbdən iqtisadi yardımların artırılması kimi tələbləri irəli sürə bilər. Məsələ ondadır ki, hər iki ölkənin hərbi alyansa üzv ola bilməsi üçün Türkiyə də daxil olmaqla, bütün NATO üzvlərinin razılığı tələb olunur. Qurumun baş katibi Yens Stoltenberq Finlandiya və İsveçin təşkilata üzvlük prosesini dəyərləndirib. Stoltenberq Türkiyə ilə bağlı açıqlamalar da verib. Qeyd edib ki, Türkiyə mühüm müttəfiqdir: "Ortaq dil tapa biləcəyimizdən əminəm. Çavuşoğlu ilə təmaslarımızı davam etdirəcəyik". Almaniyanın paytaxtı Berlində keçirilən NATO Xarici İşlər Nazirləri Toplantısında "Covid-19"a yoluxan NATO-nun baş katibi Yens Stoltenberqin yerinə müvəqqəti idarə edən Geoana girişdə jurnalistlərin suallarını cavablandıraraq deyib: "Mayın 14-də Türkiyə ilə Finlandiya və İsveçin mümkün üzvlüyü ilə bağlı danışıqlar apardıq. Bu, açıq və konstruktiv görüş oldu. NATO-nun mühüm müttəfiqi olan Türkiyə rəsmiləri narahatlıqlarını dilə gətirdilər. İnanıram ki, İsveç və Finlandiya yaxın günlərdə NATO üzvü olmaq qərarına gəlsələr, lazımi şəraiti yaradacağıq. Bu iki ölkəni alqışlamaq və konsensus əldə etmək lazımdır". İsveçin müdafiə naziri Petr Hultkvist Ankara ilə müzakirələr aparmaq üçün bir qrup rəsmi şəxsin Türkiyəyə göndəriləcəyini deyib: "Məsələnin nədən qaynaqlandığını və necə həll olunacağını nəzərdən keçirəcəyik. Lakin NATO-dan aldığımız siqnallar ondan ibarətdir ki, həm İsveçin, həm də Finlandiyanın alyansa qəbul edilməsi barədə razılıq əldə olunub".



İsveç və Finlandiya məsələsinə Rusiya da reaksiya verib. Prezident Vladimir Putin bildirib ki, NATO-nun genişlənməsi problemdir. Onun sözlərinə görə, qurumun genişlənməsi xarici siyasətdə alət kimi istifadə olunur: "Bütün bunlar təhlükəsizlik sahəsində sadə olmayan beynəlxalq vəziyyəti dərinləşdirir. O ki qaldı şimal alyansının yeni üzvlər - Finlandiya və İsveçin hesabına genişlənməsi, məlumat verim ki, Rusiyanın bu dövlətlərlə heç bir problemi yoxdur. Ona görə də bu mənada bu ölkələrin hesabına NATO-nun genişlənməsi Rusiya üçün təhdid yaratmır. Lakin bu ərazilərdə hərbi infrastrukturun genişlənməsi isə sözsüz ki, bizi cavab tədbirləri görməyə çağırır. Problem boş yerə yaradılır. Biz buna müvafiq şəkildə reaksiya verəcəyik".

Xarici işlər nazirinin müavini Sergey Ryabkov isə bildirib ki, Moskva Finlandiya və İsveçin NATO-ya daxil olması ilə barışmayacaq: "Onların qərarı böyük nəticələrə gətirib çıxaracaq səhvdir. Hərbi gərginliyin ümumi səviyyəsi artacaq. Təəssüf ki, sağlam düşüncə bəzi fantom ideyalara qurban verilir".

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyənin Finlandiya və İsveçin NATO-ya qəbul edilməsinə qarşı çıxmasının Rusiya ilə heç bir əlaqəsi yoxdur.** Analitikə görə, məsələnin kökündə Skandinav ölkələrində və qismən Finlandiyada uzun illərdir kök salmış PKK və FETÖ terrorçularının varlığı dayanır: "Türkiyənin əlinə bu iki ölkənin siyasətlərində köklü dəyişiklik edilməsi üçün onlara təzyiq etmə fürsəti düşüb. Ankara bundan istifadə etmək istəyir. Burada qeyri-müəyyən hal yoxdur. Türkiyə vaxtilə Yunanıstanın təkrar NATO-ya alınması zamanı etdiyi səhvi etmək istəmir. Əslində, Finlandiya və İsveçin təşkilata alınıb-alınmaması praktiki baxımdan heç nəyi dəyişməyəcək. Onsuz da Böyük Britaniya və ABŞ hər iki ölkəyə təhlükəsizlik qarantiyası verir və ehtiyac halında bu ölkələrə öz ordusunu yerləşdirir. Ancaq qardaş Türkiyənin bu ölkələrin NATO-ya alınması ilə əlaqəli bazarlıq predmetləri çoxdur. Məsələn, Suriya, PKK, F 35, silah embarqosu, terrorçular, iqtisadi təzyiqlər və s. Bu şərtlərdən bəziləri və ya bir çoxu ilə əlaqəli müsbət nəticə Türkiyə üçün faydalı olacaq. Rusiyaya gəldikdə isə Kremlin başını soxduğu bataqlıq gec-tez onu tamamilə içinə çəkəcək. İsveç və Finlandiya kimi ölkələrin hərbi alyansa üzv qəbul olunmaması belə Moskvanı xilas etməyəcək. Buna heç kimin şübhəsi olmasın".

# Ukrayna israrlıdır

## Rusiya işğalına son qoyulana qədər dirəniş səngiməyəcək



"Putin özünü və ölkəsini geri dönüşü olmayan vəziyyətə salıb"

**Ukrayna ordusunun Xarkov istiqamətindəki əks-hücumunu dayandırmaq mümkün deyil. Bunu Ukrayna daxili işlər nazirinin müşaviri Vadim Denisenko deyib. O bildirib ki, ruslar da hiss edirlər ki, Ukrayna ordusunun əks-hücumunu dayandıra bilməyəcəklər.**

Ona görə də xaotik şəkildə geri çəkilirlər, hücumlarımızın qarşısını almaq üçün körpüləri partladırlar. Denisenkonun sözlərinə görə, ruslar qorxurlar ki, Ukrayna ordusu onların arxasına keçə bilər, o səbəbdən yolu kəsməyə çalışırlar: "Biz artıq sərhədin yaxınlığındayıq. Ümid edirik ki, yaxın günlərdə dövlət sərhədinə çıxmağı bacaracağıq".

### Bütün dünya liderləri çalışır, Putin razı deyil!

Ukrayna müdafiə nazirinin müavini Anna Malyar deyib ki, "Azovstal" müdafiəçilərini xilas etmək üçün beynəlxalq təşkilatlar və praktiki olaraq bütün dünya liderləri çalışır. Lakin Rusiya Prezidenti Vladimir Putin buna razılıq vermir.

O bildirib ki, ölkə hakimiyyəti "Azovstal"ın müdafiəçilərinin azad edilməsi üçün çox işlər görür, lakin bu, hərbi əməliyyatdır və onun təfərrüatını açıqlamaq mümkün deyil. Malyarın sözlərinə görə, əgər hazırda zavodda hərbi əməliyyat keçirmək və blokadadan çıxarmaq mümkün olsaydı, Ukrayna Silahlı Qüvvələri bunu mütləq edərdi: "Müxtəlif planlar nəzərdən keçirilir və hazırlanır, lakin bunlar hərbi planlardır, onları açıqlaya bilmərik. İndi demək olar ki, bütün dünya liderləri Putinlə danışığa cəlb olunub. Dövlətimiz onların hamısı ilə əlaqə saxlayır. Putinlə əlaqə saxlamaq üçün bütün mümkün beynəlxalq təşkilatlar cəlb olunub".

### "Rusiya çıxılmaz vəziyyətdə olduğunu anlamır!"

Ukrayna Prezidenti Vladimir Zelenski deyib ki, Ukrayna Rusiyanın Donbassda yeni hücum cəhdlərinə hazırlaşır: "Rusiyanın cənubda hansısa yollarla hərəkatı gücləndirmək cəhdlərinə hazırlaşırıq. İşğalçılar hələ də çıxılmaz vəziyyətdə olduqlarını, "xüsusi əməliyyat"ın iflas etdiyini etiraf etmək istəmirlər. Amma Ukrayna xalqı işğalçılara reallığı tam anlayana qədər təzyiq göstərəcək".

### Belarus Ukrayna ordusunu Donbassdan yayındırır

Böyük Britaniya Müdafiə Nazirliyi məlumat yayıb ki, Belarus qoşunlarının sərhəddə yerləşməsi Ukrayna ordusunu Donbassdakı əməliyyatlara dəstək verməkdən çəkindirə bilər: "Bu günə qədər Belarus qoşunları münaqişədə birbaşa iştirak etməyib. Lakin Belarus ərazisindən Rusiyanın Kiyev və Çerniqova hücumunda tramplin kimi istifadə olunurdu. Bundan başqa Rusiya Belarus ərazisindən uçuşlar və raket zərbələri üçün istifadə edirdi".

### Putin buna görə müharibə başlatdı

ABŞ Dövlət katibi Entoni Blinken deyib ki, Moskvanın başlatdığı müharibə dünya təhlükəsizliyinin əsaslarını sarsıtmaq məqsədi daşıyırdı. Suveren ölkənin məhvi və Şimali Atlantika Alyansı daxilində iğtişaşlar Rusiya rəhbərliyinin arzuladığı nəticə idi, lakin buna nail ola bilmədilər: "Prezident Putin Ukraynanı müstəqil ölkə kimi məhv edə və NATO-nu parçalaya biləcəyini düşünərək bu qəddar və səbəbsiz müharibəni başlatdı. Əvəzində o, ancaq Ukraynanın suverenliyini və müstəqilliyini möhkəmləndirdi. NATO həmişəkindən daha güclü, daha zəngin, daha sıxdır".

### Qərb Ukraynanı ayağa qaldırmağa dözəcəkmi?

Çexiya qəzetinin "Lidovky" köşə yazarı İştvan Leko deyib ki, Ukraynanın yenidən qurulması Qərbdən böyük maliyyə tələb edəcək: "Çətin ki, Qərb buna dözsün. Avropa komissarı Valdis Dombrovskis Ukraynanın bərpası üçün 500-600 milyard avro tələb olunduğunu söyləyib. Bu məbləğ on dəfə artacaq. Aydındır ki, Qərbin maliyyə qurbanları olmadan Ukraynanı ayağa qaldırmaq mümkün olmayacaq".

### Rusiyanın hərbi cinayətləri araşdırılacaq

Beynəlxalq Cinayət Məhkəməsinin baş prokuroru Kərim Xan deyib ki, BCM-nin 42 müstəntiqi rus hərbçilərinin törətdiyi hərbi cinayətləri araşdırmaq üçün Ukraynaya gələcək. O bildirib ki, bu, onun ofisinin indiyə qədər həyata keçirdiyi ən böyük müstəntiq qrupunun araşdırması olacaq. Müstəntiqlər qrupuna Niderlanddan olan 30 mütəxəssis, o cümlədən məhkəmə-tibb ekspertləri və analitiklər daxildir. Xan qeyd edib ki, "Avrojust" təşkilatının dəstəyi ilə yaradılmış Polşa, Litva və Ukraynanın birgə istintaq qrupu ilə əməkdaşlıq müqaviləsi çərçivəsində Haaqa Məhkəməsi ümumi sənədlərlə tanış ola biləcək.

### "Dərin böhranla üz-üzəyik"

Avropa Birliyinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrell deyib ki, AB Ukraynadakı vəziyyətin qlobal iqtisadiyyat üçün nəticələrindən son dərəcə narahatdır, hesab edir ki, dünya dərin iqtisadi böhran ərəfəsindədir: "Biz bunun qlobal iqtisadiyyata təsirindən son dərəcə narahatıq. Dərin iqtisadi böhranla, o cümlədən qiymətlər, elektrik enerjisi və ərzaq böhranı ilə üz-üzəyik".

### Rusiyaya qarşı altıncı sanksiyalar paketi...

Avropa İttifaqına (Aİ) üzv ölkələrin xarici işlər nazirləri Rusiya-Ukrayna müharibəsi ətrafında son hadisələri müzakirə etmək üçün bu gün Brüsseldə görüşəcəklər. İclasın gündəliyinə müharibənin nəticələri və Rusiyaya qarşı həlelik konsensusun əldə olunmadığı, enerji resurslarının ixracı qadağasının salındığı yekun sanksiyalar paketi də daxildir. Nazirlərin görüşü Aİ liderlərinin mayın 30-31-də keçirilməsi planlaşdırılan sammitindən əvvəl keçirilir.

### "Ukrayna, Gürcüstan və Moldovanın Avropa İttifaqına üzvlüyü üzərində sürətlə işləyirik"

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel deyib ki, Ukrayna, Gürcüstan və Moldovanın Avropa İttifaqına üzvlüyü üzərində sürətlə iş gedir: "Amma Avropa Komissiyasının rəyinin nə olacağını indidən deyə bilmərəm. Biz həmçinin İsveç və Finlandiyanın NATO-ya üzvlük təşəbbüsünü dəstəkləyirik. Ümid edirəm ki, NATO-nun bəzi üzvlərinin bu məsələ ilə bağlı etirazlarını aradan qaldıra biləcək".

### Yaponiya Ukraynaya 100 milyon dollar kredit verəcək

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə Ukrayna Maliyyə Nazirliyi arasında Ukraynaya 100 milyon ABŞ dolları həcmində kreditin ayrılmasına dair saziş imzalanıb. Bu barədə Ukrayna Maliyyə Nazirliyinin məlumatında deyilir. Məlumata görə, bu kredit güzəştli şərtlərlə veriləcək. Bu, Ukrayna və Yaponiya arasında razılaşdırılmış maliyyə yardımının birinci hissəsidir. Bu vəsait ilk növbədə əhalinin ən həssas təbəqələrini dəstəkləmək üçün nəzərdə tutulmuş dövlət büdcəsinə yönəldiləcək.

### "Ukraynanın NATO-ya üzvlüyü Rusiya ilə Alyansın toqquşmasına səbəb ola bilər"

Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov Ukraynanın NATO-ya mümkün üzvlüyünün yaradacağı fəsadlarla bağlı xəbərdarlıq edib: "Ukraynanın NATO-ya daxil olması Rusiya ilə NATO arasında toqquşmaya səbəb ola bilər. Biz Finlandiya və İsveçin NATO-ya qoşulmasının Rusiyanın təhlükəsizliyinə yarada biləcək təhdidi diqqətlə izləyirik".

### "Hazırda rollar dəyişib..."

Politoloq Elxan Şahinoğlu deyib ki, müharibənin başlanğıcında Kiyev müharibəni dayandırmaq yolu ilə dayandırmağa, Kreml isə əksinə, müharibəni davam etdirməkdə maraqlı idi. Hazırda rollar dəyişib: "Rusiya müharibəni hansısa nəticə ilə yekunlaşdırmağa, Ukrayna isə işğalçını torpağından qovana qədər müharibəni davam etdirməkdə qətiyyətlidir. Putin özünü və ölkəsini geri dönüşü olmayan vəziyyətə salıb".

**İsmayıl**

Ayyət ƏHMƏD yazır



# Putin NATO-nu gücləndirir

**Əksər siyasi analitik proqnoz verirdi ki, Vladimir Putin Rusiyasının Ukraynada apardığı müharibə geosiyasi tarazlıqları şübhə altına alacaq. Eyni zamanda dünya ölkələri arasında tarixi seçimlərə zəmin yaradacaq. Şimali Avropa ölkələri - Finlandiya və İsveçin mayın 12-də Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO) üzv olmaq məqsədilə neytrallıqdan imtina edib adıçəkilən təşkilata müraciət istəyi fikirlərimizin isbatıdır.**

Əlbəttə, bu ölkələrin sözügedən təşkilata üzvlüyü bir il ərzində qüvvəyə minə bilər. Heç kimə sirr deyil ki, Rusiya ilə 1340 kilometr sərhədi olan suveren bir ölkə - Finlandiya bu gün öz təhlükəsizliyini öz qüvvələrinə arxalanaraq təmin etmək niyyətində deyil. Çünki Qarabağın işğalı, (hazırda azad olunub) Ukrayna faciəsi, Moldova və Gürcüstan presedentlərini nəzərə aldıqda Finlandiyaya haqq verməmək olmur. Bu mənada rəsmi Helsinkinin narahatlığı və öz təhlükəsizliyinin təminatında NATO-ya ümid etməsi anlaşılandır.

Baxın, iki Skandinaviya ölkəsi - Finlandiya və İsveç Soyuq Müharibə (1947-1991) dövründə NATO-ya qatılmaqdan imtina ediblər. 2022-ci ildə isə qəti şəkildə bu addımı atmaq qərarına gəliblər. İllər boyu Atlantik Alyansa qoşulmaq istəməyən ölkələrin indiki halda fundamental siyasi manevrləri ciddi mətləblərdən xəbər verir. Ukrayna faciəsindən sonra onların da Rusiyanın hədəfi olacağına dair bəzi məlumatlar dolaşırdı. Hər halda biz bunu iddia və ya xəbər kimi yazırıq, amma görünür, həmin ölkələrin beyin və kəşfiyyat bürolarında daha ciddi məlumatlar olub, var. Məhz bu səbəbdən Finlandiya və İsveçin NATO-ya üzlük məsələsinin legitimliyi şübhə altına alına bilməz. Doğrudur, qardaş Türkiyə öz daxili narahatlıqlarına istinad edərək buna dair şikayətlərini ifadə etdi. (Səbəbləri başqa bir müzakirə mövzusu olduğu üçün üstündən keçirəm) Amma Türkiyə istisna olmaqla, NATO daxilində də bu mümkün genişlənmənin təsdiqlənməsi üçün dərhal bir çox müsbət səslər qaldırıldı.

Həmçinin Böyük Britaniya da İsveç və Finlandiya ilə müdafiə sazişi imzalamağa hazır olduğunu bəyan edib.

İsveç və Finlandiya yaxın günlərdə NATO-ya üzvlük üçün müraciət etməyə hazırlaşarkən Böyük Britaniyanın Baş naziri Boris Conson mayın 11-də yay iqamətgahı olan İsveçin Harpsund şəhərinə səfər edib. İki Skandinaviya ölkəsi ilə müdafiə və müdafiə sazişi bağlamağa hazır olduqlarını bəyan edib. Əlbəttə, bu sazişin reallaşması Rusiyanın reaksiyalarından narahat olan İsveç və Finlandiyaya təhlükəsizlik zəmanəti verir.

Bundan başqa Britaniyanın Baş naziri B.Conson Helsinkiyə səfəri zamanı qeyd edib: "Əgər hər hansı bir ölkə fəlakət və ya hücum qurbanı olarsa, biz orada olacağıq və bir-birimizə kömək edəcəyik, o cümlədən hərbi yardım göstərəcəyik". Boris Conson Britaniya hərbçilərinin göndərilməsini və hətta nüvə qarşısının alınmasına yardım edəcəyini istisna etməyib:

"Biz adətən bu mövzunu - nüvə qarşısının alınması - şərh etmirik, lakin yardım üçün öz xahişini formalaşdırmaq hər iki tərəfdaşdan asılıdır və biz bu yardım öhdəliyinə çox ciddi yanaşırıq".

Amma onu da unutmaq olmaz ki, Finlandiya və İsveçin NATO-ya üzvlüyü məsələsinin aktuallaşması Ukraynadakı vəziyyətin arxa plana keçmə riskini yarada bilər. Bu mənada ki, Finlandiyanı üzv kimi qəbul etməklə, Alyans Finlandiyanın Rusiya ilə uzun quru sərhədini müdafiə planlarına inteqrasiya etməli olacaq. Xüsusən də İsveç də NATO-ya qoşularsa, bu qurum Baltik dənizindəki sistemini nəzərdən keçirməli olacaq. Rusiyanın Polşa və Litva arasında yerləşən Kalininqrad eksklavının strateji ölçüsü məsələsi yenidən müzakirə predmetinə çevrilə bilər.

Çünki NATO yalnız müdafiə ittifaqı olduğunu iddia etsə də, Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsi ilə təmin edilən kollektiv müdafiə perspektivi - bir üzvə hücum hamıya qarşı yönəlmiş hücum hesab olunur. Əlbəttə, bu, Kreml üçün "soyuq duş" effekti yaradan amildir. Məhz ona görə də rəsmi Moskva xüsusilə yeni namizədlərin - Finlandiya və İsveç - əhəmiyyətli hərbi imkanlarını nəzərə alaraq, dərhal "hərbi-texniki" cavab tədbirləri, o cümlədən mayın 14-dən Finlandiyaya elektrik enerjisinin tədarükünün dayandırılmasını elan etdi.

Lakin Rusiya prezidentinin bu məsələdə müqəssir axtarışına çıxması heç bir məntiqə, mənaya sığmır. Çünki bütün günah barometrinin indikatoru onun üzərində dayanır. Ukrayna müharibəsi başlamazdan öncə Fransa Prezidenti Emmanuel Makrondan tutmuş amerikalı həmkarı Co Baydenə qədər Qərb rəsmiləri onunla sabit və proqnozlaşdırıla bilən münasibət əldə etməyə çalışdılar. Amma V.Putin ərköyün uşaq davranışı sərgiləyərək, bəzi hallarda bu ölkə liderlərinə açıq-aşkar saymazlıq və əzələ nümayiş etdirib. Onun Ukrayna məsələsinə görə Moskvaya səfər etmiş Fransa Prezidenti E.Makronla görüşü və onu çox saygısız formada yola salmasına dair yazıların mürəkkəbi hələ qurumayıb.

Qoşunlarına "Ukraynaya hücum!" əmri verməklə V.Putin öz məqsədlərinə zidd olan dünyanın yeni konfiqurasiya və siyasi dizaynına yol açmış oldu. Bununla da o, bu gün zəiflətmək istədiyi Qərb ittifaqının ən yaxşı agenti rolunu oynadı. Rusiya lideri hər ötən gün öz qazdığı quyunun dibinə doğru bir addım atır və hər addımında bir az daha dərinə enir. Onun müharibənin dayandırılmasına dair müzakirələrin "vint"lərini sıxması silahların nəhayət susdurulacağı ilə bağlı ümidləri puça çıxarır. Ki, bu da onun siyasi intiharı və kollapsı deməkdir. Bəli, diplomatiyada riskləri doğru hesablamamaq, daha doğrusu, hesablaya bilməmək hərbi və diplomatik meydanda məğlubiyyətə gətirib çıxarır. Şimal qonşumuzun tarix boyu yürütdüyü "parçala və hökmranlıq et" siyasəti bu dəfə ayaq tutub yeriyə bilmədi. Əslində, Putin Rusiyasının niyyəti Ukraynaya qoşun yeritməklə rəsmi Kiyevin NATO-ya üzvlüyünün qarşısını almaq, digər ölkələri analoji addımlar atmaqdan çəkindirmək və NATO-nun genişlənməsini önləmək idi. Amma hədəf fiasko ilə nəticələndi. Hətta bu təşkilata üzvlük haqqında düşünməyən dövlətlər belə həmin bu təşkilata qatılmaq marağı və istəyinə düşdülər. Bir sözlə, V.Putinin məlum inadkarlığı NATO-nu gücləndirir.

# Erməni cəmiyyəti müharibə istəmir

## Koçaryan, Sarkisyan və onların dəstələri çoxdan tarixin arxivinə göndərilib



**Ermənistan son zamanlar ölkədə müxalifət adlanan siyasi qüvvələrin keçirdikləri aksiyalarla beynəlxalq ictimaiyyəti çaş-baş qoymağa cəhd göstərir. İrəvan dünya ictimaiyyətinə Azərbaycanla münasibətlərin normallaşmasına maneələrin olduğunu göstərməyə çalışır.**

Ancaq mitinqlərin təşkilatçıları, tələblər aksiyaların bütün göstəricilərlə qurama olduğunu deməyə əsas verir. Ermənistandakı etirazlara rəhbərlik edənlər Robert Koçaryan və Serj Sarkisyandır. Bir də Nikol Paşinyanın hökumətində Milli Təhlükəsizlik Xidmətinə direktorluq etmiş Artur Vanesyandır. Koçaryan Ermənistanda 1998-ci ildə hakimiyyəti zorla ələ keçirmiş və sonra onu qorumaq üçün ölkə parlamentində terror təşkil etmiş adamdır. Bu siyasətçi Rusiyanın ən yaxın adamıdır. Həbsdə olarkən Rusiya Prezidenti Vladimir Putin onu doğum günü münasibəti ilə təbrik edərək, "dostum" adlandırmışdı. Ermənistanın talan olunmasında Koçaryan müstəsna rol oynayıb, ona qarşı dövlət əmlakını mənimsəməklə bağlı da cinayət işi açılıb. Koçaryan və Sarkisyan prezidentlikləri dövründə ölkədən 20-30 milyard dollar mənimsəyiblər.

**Politoloq Sədrəddin Soltan bildirib ki, Koçaryan-Sarkisyan cütlüyünün Ermənistana etdiyi pisliklərə, törətdikləri cinayətlərə dair çoxsaylı faktlar var. Analitikə görə, onlar erməni "patriotluğu" arxasında gizlənərək dövləti cinayətlər törədiblər:** "İndi onlar siyasi səhnəyə yenidən gətirilib. Bu qüvvələrin hədəfi nədir? Hakimiyyətdə olduqları illərdə törətdikləri əməllərlə bağlı barələrində açılmış cinayət işlərini ötr-basdır etmək onların başlıca hədəfləridir. Azərbaycan-Ermənistan, Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılması prosesi bu tip qüvvələrin havadarlarının siyasi və regional maraqlarına uyğun gəlmir. Ona görə hər iki istiqamətdə normallaşma prosesini əngəlləməklə onların da istəyini yerinə yetirmiş olurlar. Koçaryan və Sarkisyan qurulmayan, hələ də formalaşmaqda çətinlikləri olan yarımçıq bir ordu ilə Ermənistanı müharibəyə sürükləməyə çalışırlar. Bu davranışla onlar regionda təhlükəsizliyi təhdid edir, qlobal sabitliyə problem yaradırlar. Lakin müharibədə ölən erməni əsgərlərin anaları yeni müharibə istəmirlər. Onlar ölkədə "etiraz aksiyalarının" keçirilməsinə də qarşı çıxırlar. Ermənistan cəmiyyəti Koçaryanı, Sarkisyanı və onların dəstəsini 2018-ci ildə tarixin arxivinə göndərib. Elə olmasaydı, müharibədən sonra 2021-ci il iyunun 20-də Ermənistanda keçirilən növbədənkənar seçkilərdə onlar uğur əldə edərdilər. Keçmiş prezidentlər bir yerdə seçicilərin səsinin heç 30 faizini belə toplaya bilmədi. Bu, onu göstərir ki, koçaryanların cəmiyyətdə nüfuzu yox dərəcəsindədir. Ölkə ictimaiyyəti daha çox sabitliyi, qonşularla əməkdaşlığı, münasibətlərin normallaşmasını istəyir".

**İsmayıl Qocayev**

**"Rusiyanın Qarabağda yaratdığı qondarma "rus icması" fəaliyyətini genişləndirir". Bu barədə "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, separatçıların başçısı Araik Arutyunyanın "rus icması"nın üzvlərini "qəbul etməsi" və Ağdərədə "rus icması" üçün "mərkəz" yaradılması Kremlin problemi inkişaf etdirmək siyasətinin tərkib hissəsidir:**



# Planın müəllifi Kremldir

## "Moskva Qarabağda həm erməni icması, həm də "rus icması"na nail olmaqla, öz hərbi iştirakını uzatmağa çalışacaq"

"Kreml Qarabağda həm erməni icması, həm də "rus icması"na nail olmaqla, öz hərbi iştirakını uzatmağa çalışacaq. Qarabağda qondarma "rus icması"nı dövriyyəyə buraxan Moskva onların "hüquqları" məsələsini də qaldıra bilər. Qarabağda rus millətindən biriki nəfər qadın var və onlar da sovet vaxtı ermənilərlə nikaha girməklə burda qalıblar. Göründüyü kimi Rusiya dövləti rus milləti faktorundan istifadə edərək təhdid, şantaj və hərbi işğalla qonşularına qarşı siyasət həyata keçirir. Məhz Ukraynaya hücumda da "rusları qorumaq" adı ilə işğalı başladı. Qazaxıstan və Baltikyanı ölkələr də Rusiyanın təhdidi ilə üzləşib. Çünki bu ölkələrdə rusların sayı müəyyən çəkiyə malikdir. Azərbaycanda da rus icması var və rusdilli məktəblər fəaliyyət göstərir. Proseslər göstərir ki, rusların bu ölkələrdə yaşaması həmin ölkələrin milli təhlükəsizliyini təhdid edə bilər. Gələcəkdə müəyyən problemlərə yol aça bilər. Moskvanın apardığı siyasət və qəbul etdiyi qanunlar məhz bunu deməyə əsas verir".

**Analitikə görə, Qarabağda da qondarma rus icması Kremlin bu avantürasının nəticəsidir:** "Rusiyanın Qarabağda "rus icması" faktorundan Ermənistanla Azərbaycan arasında sülh müqavilələsinin bağlanmasına qarşı istifadə etməsi mümkün deyil. Azərbaycan aktiv şəkildə Ermənistanla danışıqları Rusiyanı manipulyasiya etməklə aparır. Paşinyan da çalışır ki, Moskva proseslərə zərbə vura bilməsin. Rusiyanın rus kartından istifadə etməsi onun regional siyasətini fiaskoya uğradır".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

**Rəqəmsal texnologiyalar günümüzün ayrılmaz elementinə çevrilib. Bir vaxtlar xəyalımızda belə təsəvvür edə bilmədiyimiz avandanlıqlar bu gün hər birimiz üçün adi alaqə və yaxud elementar məişət əşyasıdır.**

Xüsusən də son dövrlər ölkəmizdə rəqəmsal xidmət sahəsinin əhatə dairəsi sürətlə genişlənir. Tətbiq olunan yeni yanaşmalar və elektron xidmət avadanlıqları vətəndaşların istifadəsinə verilir. Bəsit məişət işlərindən tutmuş ən mürəkkəb hesablamalara əsaslanan fəaliyyətlərə qədər hər şey yüksək texnoloji nailiyyətlərlə tənzimlənir. İnformasiya texnologiyalarının sürətli inkişafı sayəsində sadəcə bir tıklama ilə istədiyimiz informasiyanı əldə etmək, bürokratik prosedurları reallaşdırmaq, elektronlaşan bütün xidmətlərdən yararlanmaq mümkündür.

Təbii ki, bütün inkişaf etməkdə olan dövlətlər kimi Azərbaycanda da dövlət bu sahəyə ciddi diqqət ayırır, sivil dünyanın innovativ təcrübələri tətbiq edilir, hətta bəzi hallarda əksər ölkələri üstələyən xidmətlər yaradılır. Əsas məqsədi dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək olan Elektron Hökumətin İnkişafı Mərkəzinin fəaliyyəti birbaşa olaraq rəqəmsallaşmaya, institusional yeniliklərin və innovativ xidmətlərin tətbiqinə bağlıdır.

Dövlət idarəetməsinin rəqəmsal transformasiyası, dövlət xidmətlərinin elektrona çerilməsi istiqamətində xeyli addımlar atılıb, səlahiyyətli dövlət qurumları müəyyənləşdirilib.



# "ToyPay" toy sahiblərinin işini asanlaşdıracaq?

## Hər bir yenilik vətəndaşların davranış qaydalarına uyğun olmalıdır

Son illərdə həyatımıza daxil olan elektron xidmətlərdən biri də elektron ödəniş sistemləridir. Elektron ödənişlər əhaliyə vaxta qənaət, nağd pul daşınmasının yaratdığı təhlükələrdən qorunmaq, saxta əskinaslarla hesablaşmamaq, internet üzərindən mal almaq və ya kommunal xərcləri ödəmək imkanları yaradır. Həmçinin ticarət və xidmət obyektlərinə də saxta pullarla hesablaşma riskinin aradan qaldırılması, qalıq məbləğin müştəriyə qaytarılması üçün kiçik əskinaslara ehtiyacın yaranmaması üstünlüyü verir.

Bu dəfə isə həyatımıza yeni qədəm qoyan ödəniş vasitəsi -"ToyPay"dır.

Toylarda pul yığımını artıq elektronlaşdırılmış yeni üsulla həyata keçirən aparat barədə yayılan məlumatlar insanlar tərəfindən böyük maraqla qarşılanıb. Toy məclislərində ev sahibinin qarşılaşdığı çətinlikləri və qayğıları nəzərə alsaq, bu yenilik faydalı olacaq. Bundan öncə toya qədərki hazırlıqlar və toy məclisindən sonra hədiyyə ödənişi konvertlə salınırdı. Yığılan vəsaitin qeydiyyatını, haqq-hesabını aparmaq üçün isə ev yiyəsi ayrıca bir etibarlı adamına bu işi tapşırmalı olurdu və bəzən buna görə problem yaşanırdı. İndi isə bunu toy sahibinin əvəzinə terminal görəcək.

"ToyPay" şirkətinin direktoru Elşən Quliyev elektron terminallar və proqram təminatı ilə bağlı danışarkən bildirib ki, yeni elektron terminallar toy məclislərində hədiyyə ödənişlərin yığımını asanlaşdıran müasir üsuldur. O, bu ideyanı komandası ilə birgə, ev sahibinin toy boyu yaşadığı stressin qarşısını almaq üçün ərsəyə gətiriblər: "ToyPay" şirkəti tərəfindən təqdim edilən bu xidmət şadlıq sarayı vasitəsilə toy sahiblərinə elektron terminalların icarəsini həyata keçirməyə imkan verir. Terminal seçimi könüllülük prinsipinə əsaslanır. Restoranlar belə bir aparatı bir toy üçün 200 manata kirayələyə bilər. Terminallar manatla yanaşı dollar və avro da qəbul edəcək".

Şirkət rəhbərinin sözlərinə görə, terminallarda aparılan əməliyyat üzrə heç bir faiz və ya komissiya haqqı nəzərdə tutulmur: "Terminallar vasitəsilə ödəniş edildikdə heç bir vergi tətbiq olunmur və bu səbəbdən çeklər vasitəsilə ƏDV qaytarılmır. Başqa sözlə, bu gün qutulara vergi tətbiq edilmədiyi kimi terminala da tətbiq olunmur. Bu baxımdan, terminalın heç bir fərqi yoxdur. Amma gələcəkdə məsələ ilə bağlı hər hansı dəyişiklik olsa, biz də qanuna əsasən hərəkət edəcəyik.

Əgər bu terminallarla yalnız toyun keçirildiyi məkanda ödəniş etmək mümkün olacaqsa, şirkətin istifadəyə verəcəyi mobil tətbiq vasitəsilə toylara pulun yazılması prosesi nağdsız və məsafəli şəkildə də həyata keçiriləcək".

E.Quliyev yaradıcısı olduğu şirkətin layihəsi olan "ToyPoy"dan istifadə məsələsinə toxunub. Bildirib ki, yeni üsul ahıl yaşda insanlar arasında sınaqdan keçirilib və hazırda real toyda elektron terminallardan istifadə olunur və hələlik kart sistemi ilə deyil, yalnız nağd ödənişlər şəklində həyata keçirilir" (Ednews).

**İqtisadçı Natiq Cəfərli isə məsələyə fərqli münasibət sərgiləyir. O, "Şərq"ə açıqlamasında qeyd edib ki, şadlıq saraylarında istifadə olunan ənənəvi nəmər qutuları hələ də ən şəffaf qutular hesab edilir:**

- Hansısa şirkət aparat icad edib və onun tətbiqini həyata keçirmək istəyir. Belə bir aparatın heç bir hüquqi, məntiqi izahı yoxdur. Kimsə onlardan xahiş edib ki, suz Allah, terminal icad edin, toyda toplanan pulları saymaqda çətinlik çəkirik, stress keçiririk, aparat yaxşıdı, qoyaq foyeyə, qonaqlar ödəniş etsin. Toy sahiblərinin telefonuna da mesaj gəlsin?!. Toy sahiblərinin gözü bütün toy boyu telefonda qalar, görək kim gəldi, kim nə qədər nəmər saldı. Fikrimcə, bu, məntiqsiz, lazımsız bir aparatdır. İnsanları yeni qaydaya məcbur etməyə nə ehtiyac var axı? Bunun nə vergisi var, nə faizi, nə komissiyası. Deməli hesabatı, uçotu da yoxdur, heç bir qeydiyyat da aparılmır. Vergi ödəyicisi deyilsə, deməli heç bir öhdəlik də doğurmur. Heç bir hüquqi əsası da yoxdur. Yəni şəxsi biznezdir. Həm də dövlətə heç bir aidiyyəti olmayan. O zaman bu aparatın dövlətlə vətəndaş münasibətlərinə nə aidiyyəti var? Heç bir aidiyyəti yoxdur. Şadlıq saraylarında toy sahiblərinin nəmərdən əldə etdiyi gəlirdən onsuz da vergi tutulmur. Bu, toy sahibi ilə şadlıq sarayı arasında yaşanan haldır. Vergi tutulmaması tamamilə doğrudur. Ümumiyyətlə bu tip məsələlərdə vergi tutulması tətbiq edilmir. Hesab edirəm ki, bu aparat əlavə yük olacaq. Hər bir yenilik vətəndaşın davranış qaydalarına uyğun olmalıdır. Uyğun deyilsə, deməli, əlavə yükdür. Bu aparatları kim "icad edibsə", şadlıq saraylarına satacaqlar. Lakin insanların bu aparatları normal və müsbət qarşılayacağı sual altındadır.

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Direktorlar hökm verə bilməz

## İmtahanda zəif nəticə göstərən 9-cu sinif şagirdlərinin məktəbdən uzaqlaşdırılması doğru deyil

**"9-cu sinif buraxılış imtahanından sonra nəticələri zəif olan şagirdlərin kütləvi şəkildə məktəbdən kənarlaşdırılması ilə bağlı "qərar" verdiyiniz barədə çoxsaylı şikayətlər daxil olur". Bu sözləri təhsil eksperti Kamran Əsədov deyib.**

Şagirdlərin təhsil alma hüququnu məhdudlaşdırmağa heç kimin ixtiyarı olmadığını vurğulayan ekspert bildirib ki, Təhsil Nazirliyi tapşırıq verib ki, nəticəsi zəif olanlar peşə təhsilinə yönəldilsin. Yaxşı edirsiniz, amma düz etmirsiniz: "Siz elə bilirsiniz ki, icbari təhsil 9 illikdir, yəni şagirdlərin 9-cu sinfə qədər gəlməsi məcburi, ondan sonra sizin xoşunuza görədir?".

**Təhsil eksperti Nabatəli Qulamoğlunun "Şərq"ə açıqlamasına görə, imtahanda zəif nəticə göstərən uşaqların təhsildən uzaqlaşdırılması qanunsuz, amma məntiqi qərardır:** "Qanunauyğun olanla məntiqə uyğun olan məsələlər üst-üstdə düşməyəndə bu cür çaşqınlıq və narazılıqlar yaşana bilir.

Mövcud qanunvericiliyə görə, IX sinif buraxılış imtahanında zəif nəticə göstərən uşaqların məktəb direktorları tərəfindən kütləvi şəkildə məktəbdən kənarlaşdırılması doğru deyil və bu məsələnin araşdırılaraq müvafiq addımlar atılacağını ümid edirəm. Heç bir direktorun şagirdi məktəbdən uzaqlaşdırmaq haqqı yoxdu. Buna cəhd belə vəzifə səlahiyyətlərinin aşılması hesab olunur. Zəif şagirdlərin tam orta təhsil səviyyəsinə keçirilməməsi həmin şagirdlərə qarşı haqsızlıqdır.

Builki imtahanda zəif nəticə göstərən şagirdlərin gələn il yaxşı nəticə göstərməyəcəyinə heç kəs zəmanət verə bilməz.

Həyat təcrübəmdə dəfələrlə şahidi olmuşam ki, orta məktəbi üçlə bitirib, amma ali məktəbdə "Lenin" adına təqaüd alıb. Düzdür, bu kimi hallar sadəcə istisnalardır. Adətən imtahanda zəif nəticə göstərən şagirdlərin əksəriyyəti növbəti illərdə də eyni nəticəni göstərir və onların ümumiyyətlə oxumağa, təhsilini davam etdirməyə marağı olmur".

*N.Qulamoğlunun sözlərinə görə, imtahan göstəricilərinin zəif olması şagirdlərin kütləvi şəkildə məktəbdən uzaqlaşdırılmasına heç bir halda əsas vermir. Direktorlar və ya müəllimlər bunu hökmlə yox, maarifləndirmə yolu ilə uşaqlara izah etməli və onları peşə təhsilinə yönləndirməlidir:* "Peşə təhsili ilə bağlı təbliğatı elə qurmaq lazımdır ki, imtahan göstəricisi zəif olan şagirdlərin özləri peşə təhsili, orta ixtisas təhsili müəssisələrinə getsinlər. İmtahan nəticəsi yüksək normal olmayan şagirdlər iki il boşuna məktəbə ayaq döyməkdənsə, həmin illəri hansısa bir sənət öyrənməyə, peşə təhsili almağa sərf edə bilər. Zəif oxuyan şagirdlərin peşə təhsilinə yönəlməsi yaxşı haldır. Təbii ki, öz istəkləri ilə. Əksi halda qeyd etdiyiniz yönləndirmə çox absurddur. Uşağın nəticəsi aşağı ola bilər və peşə təhsilini də istəməyə bilər. Amma bu o demək deyil ki, 11 illik təhsildən kənarlaşdırılmalıdır. Bu, işin hüquqi tərəfi.

Məntiqlə düşünəndə isə şagird 9-cu sinfə qədər oxumursa və 10-cu sinfə attestat alsın deyə gəlirsə, bunun nə mənası? Üstəlik, məqsədsiz 10-cu sinfə gələn şagird bir çox hallarda etik qaydaları pozur, digər şagirdlərin təhsil alma hüquqlarını pozur və intizamsızlıq yayır".

**Şəymən**

# "Əvvəl din üzr istədirdi, indi isə dindarlar..."

## Elşad Miri: "Burada həqiqətən ciddi bir paradoks var"

**Məşhur meyxanaçı Rəşad Dağlı sosial şəbəkədə üzr videosunu paylaşıb. Meyxana bədahətən olduğu üçün dindarlara qarşı yanlışlığa yol verdiyini etiraf edib.**



"Masallıda toyların birində meyxanaçı Rəhmanla deyişməmiz olub. Əvvəlki toyların birində Rəhman mənə bir bənd meyxana demişdi, bu toyda da onu xatırlatdı. Mən də ona cavab vermişəm. Sözün bədahətən olmasına görə fikrimi düzgün çatdıra bilməmişəm. Bu da dindarlar arasında haqlı olaraq narazılığa səbəb olub.

Məni tanıyanlar bilir, seyid nəslindənəm, bu yolun tərəfdarıyam, Məşhəd və Kərbəla ziyarətlərində olmuşam, həmişə çalışmışam dini təbliğ edim. Qardaşlarım bilsinlər ki, heç də həmin tərbiyədə, əxlaqda deyiləm, üzrxahlığımı qəbul etsinlər", - deyə meyxanaçı bildirib.

**Meyxanaçının dindarlardan üzr istəməsinə ilahiyyatçı-alim Elşad Miri münasibət bildirib. O, "Şərq"ə açıqlaması zamanı bildirib ki, bu məsələyə ikitərəfli yanaşmaq lazımdır:** "Birincisi, həmin meyxanaçının nə dediyi məsələsidir. Çünki nə dediyini bilmirəm. Xomeyni deyibsə, İranın dini lideri Xamneyidir, Xomeyni yox. Əgər təhqir varsa, buna heç vaxt haqq qazandırmaq mümkün deyil. Tənqid varsa, bu artıq fərqlidir. Bu adam əgər tənqidin arxasında dura bilmirsə, deməli, həmin şəxsin şəxsiyyətlə bağlı problemi var.

Digər tərəfdən isə niyə dindarlardan üzr istəyir? Ya onun pulu dindarlardan çıxır, dindarların məclislərinə dəvət etməsindən pul qazanır, yaxud qorxur. Bu gün bilmək lazımdır ki, Azərbaycan teokratik bir dövlət deyil. Azərbaycan dünyəvi, sekulyar dövlətdir. Bizdə dövlət dindən ayrıdır. Ona görə də kimdənsə üzr istəməyin heç bir mənası yoxdur".

**İlahiyyatçı vurğulayıb ki, bu, yeni bir məsələ deyil, bundan öncə də belə hallara rast gəlinib:**

"Xatırlayırsınızsa, bununla bağlı "Sonuncu Şam Yeməyi" filmini çəkən Əlixan Rəcəbov da üzr istəmişdi. Niyə? Əgər dürüst və düzgünsənsə, elədiyinin arxasında dayanmağı bacarmalısan. Mən həmin şəxsləri müdafiə etdim. Çünki çəkdikləri film tamamilə doğru idi, gözəl tənqid idi.

Əslində Cəlil Məmmədquluzadənin "Ölülər" əsərində dilə gətirdiyi məsələni, həmin o film də təkrarlamışdı. Lakin o, C.Məmmədquluzadə ola bilmədi. Yəqin ki, özü bunu istəməyib. Nədənsə çəkinib. Ona görə də bunu nəzərə almaq lazımdır. Eyni məntiqlə, özünü ateist, deist adlandıran insanlar da gəlsinlər dindarlarla bağlı videolar çəksinlər? Elə bil, əvvəllər din üzr istədirdi, indi isə dindarlar üzr istədirlər. Burada həqiqətən ciddi bir paradoks var".

**Çimnaz Şahlar**

# "Azərbaycanda bütün mətbəxlər ümumi dəyərlərimizdir"

## "Məsələnin türk-talış qarşıdurması səviyyəsinə gətirilməsi bədxahlarımızın, o cümlədən Rusiya xüsusi xidmət orqanlarının təxribatıdır"

**Xəbər verdiyimiz kimi, tanınmış teleaparıcı Orxan Fikrətoğlu yeni vəzifəyə təyin olunub. O, Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru seçilib. Tahir Əmiraslanov isə vəzifəsindən azad olunub.**

Sözügedən təyinat son günlərin geniş müzakirə olunan mövzularından birinə çevrilib. İnsanların bir qismi Orxan Fikrətoğlunun yeni vəzifəsini təbrik edərkən, bir qismi isə buna öz etirazlarını bildirib. Onlar yeni təyinatın yanlış seçim olduğunu düşünərək, bu qərarı tənqid edib. Lakin bütün bunlarla yanaşı bu vəziyyətdən sui-istifadə edənlər də olub. Həmin şəxslər məsələyə tam fərqli rakursdan yanaşaraq bunu "türk-talış" qarşıdurmasına çevirib.

**Yaranan qalmaqallı vəziyyətlə bağlı politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlama verib. O bildirib ki, bu məsələnin arxasında bizə dost olmayan qüvvələr dayanır:** "Tahir Əmiraslanov Azərbaycanın çox vətənpərvər ziyalısıdır. Bu sahədə də çox böyük işlər görüb, Azərbaycan mətbəxinin dünyada tanınmasında böyük uğurlara imza atıb. Ona gələcəkdəki işində uğurlar arzulayıram.

Məsələnin çox primitiv səviyyədə müzakirə olunması onu deməyə əsas verir ki, pərdə arxasında Azərbaycana dost olmayan ölkələr dayanır. Bu gün talış mətbəxi, yoxsa türk mətbəxi kimi ayrı-seçkilik ortaya qoymaq yolverilməzdir. Azərbaycanda yaşayan müxtəlif etnik qrupların özünəməxsus mətbəxi var. Bunların hər biri bizim ümumi dəyərimizdir. Bu nemətlər hamımızındır. Yəni burada sırf türk-talış qarşıdurması yaratmaq cəhdləri, əlbəttə ki, ağlasığmazdır.



Təbii ki, talışların qurub yaratdığı, daha çox istifadə etdiyi mətbəx var. Amma bu, bütövlükdə Azərbaycanın milli dəyəridir".

Azər Rəşidoğlu sonda hədəf göstərib. O düşünür ki, məsələnin türk-talış qarşıdurması səviyyəsinə gətirilməsi bədxahlarımızın, o cümlədən Rusiya xüsusi xidmət orqanlarının təxribatıdır.

**Çimnaz**

# Azərbaycan artıq "Avroviziya"dan imtina etməlidir

## Yarışmanın bu qədər siyasiləşməsinə sərt reaksiyamızı verməliyik




**”Avroviziya-2022” mahnı müsabiqəsində Azərbaycanın verdiyi 12 xalla bağlı problem yaranıb.**

Müsabiqənin final mərhələsi zamanı baş verənlər və ondan sonra verilmiş qərarlar Azərbaycan İctimai Televiziya və Radio Yayımları Şirkətində təəssüflə qarşılanıb. Ölkəmizdən 12 xal Ukraynaya verilməli imiş. Lakin yarışma təşkilatçıları final şousunun sonunda heç bir səbəb gətirmədən israrla başqa nəticələrin açıqlanmasını istəyiblər. Bu istək biz tərəfdən rədd edilsə də yarış təşkilatçıları Bakıya bağlanmayıb, adımızdan öz nəticələrini elan ediblər. Həmçinin Bakıdan səslərin canlı yayımda elan olunması üçün heç bir texniki problem olmayıb.

Məlumata görə, yayım zamanı İctimai Televiziya və Radio Yayımları Şirkətinin nümayəndəsi Azərbaycanda münsiflərin səsvermənin nəticələrini elan etməyə tam hazır olmasına baxmayaraq, yarış təşkilatçıları Bakıya bağlanmayıb, bizim adımızdan öz nəticələrini elan ediblər: ”Bu prosesin Bakıdan aparılmaması isə texniki problemlərlə əlaqələndirilib. Halbuki bizdə səslərin canlı yayımda elan olunması üçün heç bir texniki problem yox idi. Bir daha vurğulayırıq ki, biz təşkilatçılara İctimai Televiziyanın adından səsləri elan etməyə heç bir hüquq verməmişik. Biz bu məsələ ilə bağlı rəsmi cavab gözləyirik və ondan asılı olaraq növbəti addımlar atmağı planlaşdırırıq. Ümid edirik ki, yaranmış vəziyyət tezliklə ədalətin qorunması şərtilə çözüləcək”.

Eyni halla qarşılaşan digər bir ölkə isə Gürcüstan olub. Belə ki, finalda canlı bağlantı qurmağın mümkün olmadığı deyilən ölkələrin səslərini açıqlayan nümayəndə Gürcüstanın 12 xalı Böyük Britaniyaya, Ukraynaya isə 6 xal verdiyini bildirib.

Məsələ ilə bağlı Gürcüstanın İctimai Yayımçısı bəyanat yayıb: ”Gürcüstandan olan münsiflər heyəti ən yüksək xalı - 12-ni Ukraynaya verib. Bunu ”Avroviziya” mahnı müsabiqəsinin təşkilatçılarına göndərilən notariat qaydada təsdiq edilmiş sənəd sübut edir. İctimai Yayım bütün şərtlərə əməl edib, rəsmi sənəd göndərib və heç bir nöqsan olmadığına dair Avropa Yayım Birliyinin razılığını alıb. Hazırda Avropa Yayım Birliyində (EBU) araşdırma aparılır. Nəticələrin yaxın zamanlarda elan ediləcəyini gözləyirik”.

**Siyasi şərhçi Azər Həsrət ”Şərq”ə açıqlamasında deyib ki, ”Avroviziya” məsələsinə köklü yanaşmaq və sərt mövqe sergiləmək lazımdır. İllər əvvəl Azərbaycanın bu cür beynəlxalq platformalara ehtiyacı vardı:** ”Ölkəmizi beynəlxalq arenada tanıtmaq, səsimizi dünyaya çatdırmaq üçün bu cür tribunalar bizim üçün mühüm əhəmiyyət kəsb edirdi. Amma indi geosiyasi vəziyyət dəyişib. Azərbaycan inkişaf edərək güclənib. Müvafiq dairələrdə öz sözünü deyib və dünyaya çıxışa nail olub. Ona görə də "Avroviziya" mahnı müsabiqəsi ilə bağlı yeni qərarlar alınmalı, fərqli siyasət yeridilməlidir”.

*A.Həsrətin sözlərinə görə, müsabiqə təşkilatçılarının səsvermənin nəticəsinə bu cür kobud müdaxiləsi və Azərbaycanın əvəzinə Ukraynaya 12 yox, 6 bal verilməsi ölkəmizin beynəlxalq imicinə zərbə və gözdənsalma kampaniyasıdır:* ”Avroviziya” mahnı müsabiqəsinin bir mahnı yarışması kontekstindən çıxarılaraq bu dərəcə siyasiləşməsi və müxtəlif mərkəzlərin əlində alətə çevrilməsi fonunda Azərbaycan tərəfi öz reaksiyasını sərt şəkildə bəyan etməlidir. Qardaş Türkiyə nümunəsini örnək alaraq Azərbaycan da artıq bu yarışmadan imtina etməlidir. Və ən əsası bu cür platformalarda haqqımızın tapdanmasını sıradan bir hadisə kimi qəbul etməməliyik. Sərt şəkildə öz haqqımız uğrunda mübarizə aparmalıyıq. Bunun üçün də yetərli gücümüz və arqumentlərimiz var.

Hamımız bilirik ki, ”Avroviziya” mahnı müsabiqəsindən daha çox siyasi yarışdır. Bu yarışmadan siyasi mesajların verilməsi üçün istifadə olunur. Builki yarışma da bunu təsdiqlədi. Hansı ölkə həmin vaxt aktual olursa, Avropa kiməsə mesaj ötürmək istəyirsə, qalib də buna uyğun seçilir”.

*Qeyd edək ki, Ukrayna İtaliyanın Turin şəhərinin ev sahibliyi etdiyi 66-cı ”Avroviziya-2022” mahnı müsabiqəsinin qalibi olub.*

**Şəymən**

## Metroya daxil olanlar yoxlanır

Məqsəd COVID-19 xəstələrini müəyyən etməkdir



**Son günlər Bakı metrosunda polis əməkdaşları tərəfindən aparılan yoxlamalar daha da gücləndirilib.**

Xroya daxil olan vətəndaşlardan şəxsiyyət vəsiqələrini də tələb edirlər. Məsələ ilə bağlı Trend-in sualını cavablandıran Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, həmin yoxlamalar metroya daxil olan COVID-19 xəstələrinin müəyyən edilməsi üçündür. Bu yoxlamalar metroya daxil olarkən aparılır və kütləvi deyil.

*Qeyd edək ki, Operativ Qərargahdan verilən məlumata görə, dünən Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 5 yeni yoluxma faktı qeydə alınıb, 8 nəfər müalicə olunaraq sağalıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.*

*Azərbaycanda indiyədək ümumilikdə 792 673 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 912 nəfər müalicə olunaraq sağalıb, 9 709 nəfər vəfat edib, 52 aktiv xəstə sayı nəfərdir.*

**Bildiriş**

“AVTO-QARANT”ACIQ SƏHİMDAR CƏMİYYƏTİNİN SƏHİMDARLARININ NƏZƏRİNƏ

30.06.2022 ci il tarixində saat 11:00 da Bakı şəhər Xətai rayon Mingəcevir kücəsi 40 ünvanında ”AVTO-QARANT”Acıq səhimdar cəmiyyətinin Səhimdarlarının növbəti ümumi yığıncağı keciriləcəkdir

Gündəlikdə duran məsələlər

1. 2021 ci illərin yekununa dair hesabat və balans hesabatının təsdiqi

2. Cəmiyyətin səhimləri üzrə illik dividetlərin müyyənləşdirilməsi

”AVTO-QARANT”ASC-nin

Müşahidə şurasının sədri Bağırov Vilayət Qəşəm oğlu




## Mühüm məsləhət

”Google”də axtarış zamanı işlərinizi asanlaşdıra bilərsiniz

**”Şərq” xarici mediaya istinadən ”Google”də axtarış zamanı işlərinizi asanlaşdıracaq məsləhətləri təqdim edir:**

1. Hər hansısa bir kəlmənin anlamını bilmək istəyirsinizsə qarşısına ”define” yazaraq axtarış edin. Misal üçün: ”define marketing”

2. Bildiyiniz konkret sayta bənzər sayt axtarırsınızsa, onunla əlaqəli saytlardan istifadə edin.

3. Dəqiq bir ifadəni axtarırsınızsa həmin ifadəni dırnaq arasında yazın. Misal üçün: ”mühəndislərin maaşı”

4. Axtarış nəticələrində görmək istəmədiyiniz söz varsa, istisna etmək istədiyiniz sözün önünə ”-” qoyun.

5. Axtarışınız üçün xüsusi fayl növünə ehtiyacınız varsa, həmin sözdən sonra fayl növü etiketindən istifadə edin. Misal üçün: fayl növü-PDF

6. Axtardığınız hər hansısa bir cümlədə unutduğunuz söz varsa onun yerinə ”*” işarəsi qoyun. Misal üçün: İgid odur **düşə atlana.

**Günəş Mərd**

# Diqqətli olun!

## “Çiyələyin ölçüsünün normadan böyük olduğu anormallıqdır”

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov regionda çiyələk yetişdirilən məkanların birində olub. O, meyvənin yetişməsi üçün zərərli dərmanların saxlanıldığı məkanı görüb.**

”O tərəf-bu tərəf çevirib, bəh-bəhlə yediyiniz bu çiyələklər hər gün ömrünüzü qısaldır”-, deyə ekspert vurğulayıb.

Görünüşünə üstünlük verib ləzzətlə yediyimiz kimyəvi tərkibli çiyələklərin insan orqanizminə müəyyən ziyanları var.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan tibb elmləri doktoru, professor Adil Qeybullanın fikirlərinə görə, ölkəmizdə süni yetişdirilən tərəvəz və meyvələrin satışı geniş vüsət alıb. Ən narahatlıq doğuranları isə pomidor, çiyələk, qarpızdır:** ”Bunlar sulu olduqları üçün yetişdirmək üçün lazımi müxtəlif maddələri toplamaq, kumulyasiya etmək qabiliyyətinə malikdir. Ona görə də maddələrlə zənginləşmələr baş verir. Diqqəti baxsaq, çiyələyin ölçüsünün normadan böyük olduğunu görürük. Təbiətdə belə çiyələk yetişmir.



***"Təbiətdə belə çiyələk yetişmir. Deməli, onun yetişdirilməsində müəyyən maddələrdən yararlanılır"***

Deməli, onun yetişdirilməsində müəyyən maddələrdən yararlanılır. Ölçüsünün böyüklüyü xeyli maddələrin kumulyasiyası ilə nəticələnir. İnsanlar belə məsələlərdə mümkün qədər ehtiyatlı davranmalıdır. Ən azından maddələrin qəbulunda müəyyən məhdudiyyətlər qoyulmalıdır.

Hər bir tərəvəz öz vaxtında yetişməlidir. Təbii üsullarla yetişən, orqanik məhsullara üstünlük vermək daha məqsədəuyğundur. İndi seçim də azdır, insanlar öyrəşib.

Lakin vaxtından əvvəl yetişən, tərkibində müxtəlif maddələr olan tərəvəz və meyvələrdən məhdud şəkildə istifadə edilsin".

**Aygün Tahir**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Yollarda təcrübəsiz taksi sürücüləri çoxalıb

## Bu faktor da qəzaların sayının artmasına gətirib, çıxarır

**Azərbaycanda magistral yollarda baş verən qəzaların sayı 36 faiz artıb. Bunu Dövlət Statistika Komitəsi bildirib. Komitədən əldə olunan məlumata görə, 2022-ci ilin yanvar-mart aylarında magistral avtomobil yollarında 64 qəza olub.**

Bu isə ötən illə müqayisədə 36,2 faiz artım deməkdir. Yaşayış məntəqələrində isə 339 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Bu isə ötən illə müqayisədə 3 faiz artım deməkdir.

Qeyd edək ki, bu ilin yanvar-mart aylarında 403 və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,2 faiz çox yol-nəqliyyat hadisəsi baş verib. Bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 12,3 faiz artaraq, 556 nəfər olub. Onlardan 183-ü həlak olub, 373-ü isə yaralanıb. Hadisələrin 48,9 faizi gündüz, 35 faizi gecə, 16,1 faizi isə toran vaxtı yaşanıb, 29 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Yol-nəqliyyat hadisələrinin 84,1 faizi yaşayış məntəqələrində qeydə alınıb. Bu hadisələr nəticəsində həlak olanların sayı ötən ilin müvafiq dövrünə nisbətən 44,9 faiz artaraq, 129 nəfər, yaralananların sayı isə 0,9 faiz azalaraq, 335 nəfər olub.

**Azərbaycan Texniki Universitetinin Avtomobil daşımaları və yol hərəkətinin təşkili kafedrasının dosenti, nəqliyyat üzrə ekspert Fərhad Eyyubov ”Şərq”ə açıqlamasında bildirib ki, qəzalar dinamik prosesdir və onu idarə etmək çətin olur:**

”Ümumiyyətlə, qəzanın başvermə səbəbi və amilləri birbaşa və dolayı yolladır. Yol-nəqliyyat hadisələrinin üç - kəmiyyət, keyfiyyət, topoqrafik formada analizini müəyyən etmək mümkündür. Hər baş verən hadisənin səbəbləri subyektiv və obyektiv olmaqla iki yerə bölünür. Subyektivə insan amili, yeni piyadalar, sürücülər, sərnişinlər, velosipedçilərin təqsiri ucbatından yaşanan hallar, obyektivə isə mühitin, yolun problemləri, nəqliyyat vasitəsinin nasazlığı aiddir. Bunlar hər biri araşdırılmalı, daha sonra xoşagəlməz məsələlər aradan qaldırılmalıdır. Amma görünən odur ki, magistral



yollardakı qəza hadisələrinin əksəriyyəti subyektiv amillərdən qeydə alınır. Magistral yollar təchiz olunub. Yəni oraya insanlar daxil olmamalıdırlar. Çünki sürət həddi yüksək olduğu üçün onu idarə etmək mümkün olmur. Belə hadisələrin mühüm həlli yolu maarifləndirmədir. İnsanlar yol nəqliyyat vasitəsi ilə törətdikləri qəzaların onlara zərər verdiyini anlamalı, özlərini qorumalıdırlar. 2019-2020-ci illər üçün yol hərəkətinin təhlükəsizliyi haqqında dövlət proqramı müəyyən edilib. Həmin proqramda nəzərdə tutulub ki, müəyyən illərdə yol-nəqliyyat hadisələrinin azalma tendensiyası olmalıdır. Amma əksinə, daha da artır. Ona görə də bu, cəmiyyətin bəlasıdır. Onlar belə məsələlərə laqeyd yanaşmamalıdır. Neçə illərdir maarifləndirmə işləri də davam edir, amma təsiri az olur. Ona görə ki, nəqliyyat vasitələri gündən-günə artır. İnsanlarda düşüncə, intuisiya olmalıdır”.

**Nəqliyyat problemləri üzrə ekspert İlqar Hüseynli də qeyd edib ki, Azərbaycanda yol qəzalarının artmasının bir çox səbəbləri var:** ”Birincisi, ölkəyə normadan artıq avtomobil idxal olunur. Vətəndaşların fərdi avtomobil parkları yenilənmir. Əslində əhali daha çox yeni nəqliyyat vasitələrinə deyil də, birinci, ikinci, üçüncü əl işlənmiş, ucuz avtomobillərə üstünlük verirlər. Çünki maddi durumları qiyməti yüksək olmayan maşınlar almağa yetir. Qəzaların yaşanmasına şərait yaradan faktorlardan biri də texniki cəhətdən bu tip avtomobillərin nasaz olmasıdır. Yəni avtomobil parkı istər fərdi, istərsə də ictimai olsun, təzələnməlidir. Dövlət Gömrük Komitəsi iləbeil qadağalar tətbiq edir, yaşı 10 ildən az olmayan nəqliyyat vasitələrinin ölkəyə idxalına nəzarət olunur. Lakin istənilən halda nəqliyyat vasitələri də köhnəlməyə doğru gedir. Yəni texniki nasazlıq problemləri yaşanır. İkinci faktor vətəndaşlarımızın, sürücülərin ötmə əməliyyatı, sürət həddi qaydalarına əməl etməməsi ciddi problemlərdir. Bildiyimiz kimi, magistral yollarda, kifayət qədər məsafələrdə nəzarətedici radar qurğuları quraşdırılıb. Polis postları tikilib. Amma radar qurğularından yayındıqdan dərhal sonra ciddi şəkildə sürət həddi pozulur. Azərbaycan Respublikasının avtomobil yolları maksimal 120 kilometr/saat sürətlə hərəkət tələblərinə cavab verir. Burada sürücülərin məsuliyyətsizliyi, sanki heç nə olmazmış kimi özlərinə arxayınlığı, sürət həddinin artmağı, ötmə qaydalarındakı yaranan problemlər qəzaların artmasının səbəbləridir.

Ekspert əlavə edib ki, ölkəyə kifayət qədər taksi fəaliyyəti ilə məşğul olmaq üçün avtomobillər gətirilib: ”Bu taksilərə təlim görməmiş, uzun müddət sükan arxasında olmayan, ordan-burdan sürücülük vəsiqəsi əldə etmiş, təcrübəsiz insanlar cəlb olunur. Bu faktor da nəticədə qəzaların sayının artmasına gətirib, çıxarır. Qanunvericilik, inzibati xəta tələbləri baxımından kifayət qədər ciddi sanksiyalar nəzərdə tutulur. İstər sürət həddinin aşılması, istər nişan tələblərinin pozulması, kəmərdən istifadə ilə bağlı texniki baxış elektronlaşdırılıb. Avtomobilinin texniki baxışdan keçirməyən sürücülərin adına dərhal cərimələr gəlir. Eyni zamanda nəqliyyat vasitəsini alkoqolla idarə edənlər haqqında həm inzibati xətalar, həm də 6 ay müddətinə sürücülükdən məhrum etmək, avtoxuliqanlığa görə, inzibati həbs də tətbiq olunması nəzərdə tutulur. Bildiyimiz kimi, bu gün cərimələrin məbləği kifayət qədər yüksəkdir. Cərimə mexanizmi həyata keçirilsə də, qəza şəraitini yaradan sürücülərin sayı durmadan artır. Vizual nəzarəti bir qədər artırmaq lazımdır. İctimai nəzarət ciddi şəkildə olmalıdır. Vətəndaşların bir-birinə nəzarət sistemi qurulmalıdır. Hazırda tətbiq olunan cəza mexanizmləri qənaətbəxşdir. Düşünürəm ki, bundan şiddətli cəza mexanizmlərini tətbiq etmək imkanında deyilik. Sadəcə, ictimai nəzarəti gücləndirmək lazımdır”.

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1331



## Bəxti gətirdi, sağ qaldı

Timsahın hücumuna məruz qalan şəxs xəstəxanaya çatdırılıb

**Avstraliyada qanlı hadisə yaşanıb. Üzmək üçün suya girən timsahın hücumuna məruz qalıb. O, ağır xəsarət alıb və xəstəxanaya yerləşdirilib.**

"Şərq" NTV-yə istinadən xəbər verir ki, üzmək üçün şəlalənin yaxınlığında suya girən şəxs timsahın hücumu nəticəsində qolundan və ayağından yaralanıb. Hadisədən sonra çağırılan xilasetmə helikopteri yaralını xəstəxanaya çatdırıb.

"Sözügedən şəxs bizə timsahın 2-3 metr uzunluğunda olduğunu söylədi. Onun bəxti gətirib", - xilasetmə qrupundan Qreq Allan deyib.

Kvinslend Təcili Yardım Xidmətindən bir səlahiyyətli, bölgədə şirin su timsahlarının ciddi bir populyasiyasının olduğuna diqqət çəkib.

**Çimnaz Şahlar**

## Saxta pul satan ələ keçdi

Kiloqramını 70 lirəyə satırmış



**İstanbul polisinin həyata keçirdiyi əməliyyat saxta pulları dövriyyəyə çıxaran şəxsin ələ keçməsiylə nəticələnib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, əməliyyat İstanbul Beyoğlu səmtində, Çukur Məhəlləsində gerçəkləşib. Saxta pulların kiloqramını 70 lirəyə satan şəxs də, pulları alınan şəxs də polis tərəfindən tutulub. Onlara "Türk Pulunun dəyərini qoruma qanuna qarşı" əməlinə görə cinayət işi açılıb. Saxta pulların dövriyyəyə buraxıldığına dair polisə məlumat daxil olduqda polis hərəkətə keçib və saxtakarları kənardan izləyib. Ramazan Y. adlı şəxsin iş yerinə gələnlərin özləriylə saxta pul gətirdiyi məlum olub. İş yerində torbalara doldurulmuş külli miqdarda saxta pul aşkarlanıb. Polis pulların kimdən alındığını öyrənib və həmin şəxs də yaxalanıb.

**Məlahət**

## "Atatürk" roluna görə pul qazanacaq



**Türkiyəli aktyor Aras Bulut İynəmlinin baş rolunu canlandıracağı "Atatürk" serialından qazanacağı məbləğ bəlli olub.**

**Axşam.az türk mediasına istinadən xəbər verir ki, aktyora hər bölüm üçün 700 min lirə ödəniş ediləcək.**

***Qeyd edək ki, layihədə Arasın tərəf müqabili "Harry Potter" filmindəki obrazıyla dünyada tanınan aktrisa Emma Uatsondur. Anası - Zübeyde xanım obrazına aktrisa Songül Öden, atası- "Ali Rıza Efendi"yə isə Mehmet Günsür həyat verəcək.***

## Ana qızını qorudu

Bunun üçün 36 il özünü kişi kimi təqdim edib



**Hindistanda 57 yaşlı ana qızını təhlükəsiz şəraitdə böyütmək üçün özünü kişi kimi təqdim edib.**

**Oxu.az xəbər verir ki, qadın 20 yaşında ailə qurub, amma əri toydan 15 gün sonra dünyasını dəyişib. Tezliklə qadının qızı doğulub. Xanım yenidən ərə getmək istəməyib. Özünü və qızını dolandırmaq üçün o, çox çalışmalı olub. İşdə həmkarları onu sıxışdırıblar. Qadın kişilərin ona olan marağını əngəlləmək üçün kişi kimi geyinməyə qərarına gəlib. Onun cinsini yalnız yaxın adamları bilib. Hamı üçün o, kişi olub. Hətta ana bəzi sənədlərində də kişi kimi qeydiyyatdan keçib.**

**Məlumata görə, artıq yaşlı qadın həyatında maddi sabitliyə nail olub. Amma yenə də cinsini açıqlamaqdan qorxur. Belə ki, o, həm kişi olmağa öyrəşib, həm də kişi kimi geyinərək özünü daha təhlükəsiz hiss etdiyini bildirib.**

## Son 100 ilin rekordu

Hindistanda 49 dərəcə isti qeydə alındı



**Hindistanda havanın temperaturu paytaxt Dehlidə 49,2 dərəcəyə çataraq rekordu yeniləyib.**

**Meteoroloji stansiya 49 dərəcə selsidən yuxarı temperatur qeydə alıb.**

**Müvafiq olaraq, Mangeşpurda 49,2, Nəcəfqarhda havanın temperaturu 49,1 dərəcə olub.**

**Meteorologiya stansiyası yaranacaq güclü külək nəticəsində temperaturun bir qədər aşağı düşə biləcəyini açıqlayıb. Bölgədə sonuncu rekord temperatur 1944-cü ildə Safdarjunqda 47,2 dərəcə Selsi ilə qeydə alınıb.**



# Edama bir gün qalmışdı

Məhkəmə günahsız ananın hüquqlarını qorumaq haqqını tanıyıb

**Məlahət Rzayeva**

Meksika əsilli ABŞ vətəndaşı Melissa Lucionun həyatı 2 yaşlı qızı Mariahın pilləkənlərdən yıxılıb ölməsiylə alt-üst olub. Melissanın edamına 24 saat qaldığı bir vaxtda ortaya çıxan həqiqət isə dünyanı ayağa qaldırır. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, 2 yaşlı Mariah pilləkənlərdən yıxıldıqdan 2 gün sonra huşunu itirib. Ana təcili yardım çağırıb. Lakin körpə az sonra vəfat edib. Əkiz övladlarına hamilə olan Melissa körpəsinin itkisini hələ tam anlamağa macal tapmamış polis qapıya gəlib və tibbi ekspertin rəyini gözləmədən körpənin ölümündə ananı günahlandıraraq nəzarət altına alıb. Melissa polis şöbəsində 4 dedektiv tərəfindən 6 saat dindirilib. Dedektivlər körpənin ölümünə məhz ananın bais olduğunu Melissanmın boynuna qoymağa cəhd ediblər. Onu körpəyə şiddət tətbiq etməkdə günahlandırıblar. Deyiblər ki, bunları isbatlayacaq dəlillərə malikdirlər. Bu da azmış kimi Melissaya "günahını etiraf et, cəzan yüngül olsun", "tövsiyəsi" də veriblər. Sonra da uşağın yaralı halda çəkilmiş şəklini göstərərək "övladınızın cənazəsində iştirak etməyəcəyinizə şübhəmiz yoxdur" deyiblər. Melissa bəlkə 100 dəfə "mən qızıma zərər verməmişəm" söyləsə də, dedektivlərin mənəvi basqısı sonunda gözlədikləri nəticəni verib. Melissa "bu, mənim günahım ola bilər. Hesab edirəm ki, körpəmi





mən öldürmüşəm", söyləyib. Ancaq "hesab edirəm ki", kəlməsi Melissanın həyatını alt-üst edib. Məhkəmə ananı körpənin ölümündə günahkar sayıb və Melissaya edam cəzası kəsilib. Amma Melissanın digər övladları 2 yaşlı bacılarının pilləkənlərdən yıxıldığını, analarınınsa bu zaman otaqda onların məktəb çantasını hazırladığını söyləyib. Övladları anaların günahsız olduğunu deyib. Amma yenə də məhkəmə öz qərarını dəyişməyib. Melissanı edamdan xilas edən ədliyyə həkimi Norma Farley olub. Ədliyyə həkimi vəfat etmiş körpə Mariahın hərəkət məhdudiyyətli olduğunu və bu səbəbdən tez-tez yıxıldığını sübut edib, ortaya tibbi dəlillər qoyub. Lakin məhkəmə yenə də bu dəlilləri inandırıcı saymayıb. Melissa tam 15 il edamını gözləyib. Bu məhkəmə prosesi və Melissanın günahsızlığı hətta realiti-şoular mövzusuna çevrilib. Melissanın edamına bir neçə gün qalmış vəkillər apelyasiya şikayəti verib. İşə baxan Texas Apelyasiya Məhkəməsi Melissanın edamını başqa vaxta keçirib. Və ananın hüquqlarını qorumaq haqqını tanıyıb. Melissa məhkəmə qərarı barədə "həyatda qalmağıma və məsum olduğumu isbatlamaq üçün mənə möhlət verən məhkəməyə təşəkkür edirəm. Qızım Mariah daim qəlbimdədir. Övladlarıma analıq, nəvələrimə nənəlik etmək üçün bundan sonra çox zamanım olacaq. Mənim üçün dua edən və dəstəkləyən bütün insanlara təşəkkür edirəm", söyləyib.



# Qulançar min dərdin dərmanıdır

Köpdən əziyyət çəkənlər istifadə edə bilər

**"Mərəçöyüd və ya qulançar adlanan bu bitki, respublikamızda ən çox Naxçıvan MR-nın bütün rayonlarında, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında, Gəncə-Qazax, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala və s. bölgələrdə ən çox quru, daşlı-çınqıllı yamaclarda, qaratikan kollarının ətrafında bitir".**

**Bu sözləri "Şərq"ə açıqlamasında mərəçöyüdün faydalarından danışan qida məsələləri üzrə ekspert Ağa Salamov deyib.**

Ekspertin sözlərinə görə, bəzi dillərdə bu bitki asparagus, sparja, kuşkonmaz, kamamuri, kumi saqqızı kimi ifadə olunur. Bitkinin yaşı çox qədimdir, Qədim Romada, Misirdə 4000 il öncə tanınırdı:

"Bu bitkinin mətbəxdə də xüsusi yeri var və ən çox salatlarda çiy və ya azca pörtləmiş şəkildə istifadə olunur. Qırmızı ət məhsullarına da qarnir olaraq çox yaraşır. Faydalarına gəlincə, mərəçöyüdün faydalarını saymaqla bitməz. Sadəcə qısa olaraq onu deyə bilərəm ki, tərkibində k vitamini zəngin olduğuna görə orqanizmdə kalsiumun sovrulmasına yardımçı olur. Bunun da təbii olaraq sümüklərə və ümumilikdə skletə çox faydaları var. Tərkibindəki glutathione sayəsində stres zamanı bədəndə əmələ gələn sərbəst radikalların bədəndən çıxarılmasını təmin edir və probiotik tərkibə malik olduğu üçün immunitet sistemini də gücləndirir. Mərəçöyüd yüksək qan təzyiqini tənzimləməyə yardımçı olan kalium mineralı ehtiva edir. Kalium qan damarlarının divarlarını genişləndirərək və artıq duzu idarə vasitəsilə çıxararaq qan təzyiqini azaldır".

*A.Salamov köpdən əziyyət çəkən insanlara mərəçöyüdün məsləhət görülmədiyini deyib:* "Çünki mərəçöyüd tərkibindəki rafinoza adlanan karbohidrat səbəbiylə köp verə bilər. Eyni zamanda zanbaq ailəsinə qarşı allergiyaya meyilli insanlar diqqətli olmalıdırlar. Gut xəstəliyi, böyrək daşı, sidik turşusu ilə bağlı problemləri olan insanlar mərəçöyüd yeməkdə ehtiyatlı olmalıdırlar, çünki tərkibində purinlər var".

**Şəymən**

## Peyvəndlərə "çip" yerləşdirilməsi ağ yalandır

Bill Geyts şayiələrə gülür



**"Microsoft" şirkətinin həmtəsisçisi, dünyanın ən zəngin insanlarından biri Bill Geyts koronavirus peyvəndlərinə "çip" yerləşdirildiyi iddialarına cavab verib.**

B.Geyts deyib ki, COVİD-19-a qarşı qoruyucu peyvəndlərə guya ki, hansısa çip yerləşdirildiyinə dair yayılan şayiələr bəşəriyyəti təhdid edən qarayaxma kampaniyasıdır və insanları peyvənd olunmamağa təhrik edir. Bu, faciəvi haldır. Qeyd edilir ki, koronavirus pandemiyasının qızğın vaxtında bir neçə ölkə COVİD-19-a qarşı peyvənd istehsalına başladı və peyvəndlər Ümumdünya Səhiyyə Təşkilatı xəttiylə dünya ölkələrinə göndərilməyə başlandı. O zaman da bu xəbərlər ortaya çıxdı ki, guya, peyvəndlərə çiplər yerləşdirilib, onların vasitəsilə insanların harada olduğu, nə etdiyi nəzarət altında saxlanacaq. Bu xəbərlər bir çox insanın peyvəndlərdən yayınmasına səbəb oldu. Hələ də bu şayiələrə inanaraq peyvənd olunmaqdan imtina edən insanlar var. Şayiələrlə bağlı danışan B.Geyts "niyə insanları təqib etməliyəm, onların harada olduğunu bilmək nəyimə lazımdır, niyə insanlar belə düşünür, anlamıram. Buna əslində gülməyim gəlirdi, lakin insanların bu mənasız şayiələr səbəbiylə peyvənddən imtina etmələri, ağılsızlıq durumdur və faciəvidir", deyib. B.Geyts hesab edir ki, insanlar "peyvəndlər yalnız mənfəət əldə etmək üçün istehsal edilib", kimi sadə mülahizəyə daha tez inanırlar, nəinki COVİD-19 virusunun nədən, hansı səbəblərdən sürətlə yayıldığına dair elmi mülahizələrə.

**Məlahət**

## Britaniyada meymun çiçəyi xəstəliyi yayılır



**Böyük Britaniyada daha 2 nəfərdə meymun çiçəyi xəstəliyi qeydə alınıb.**

Bakupost.az xəbər verir ki, ölkədə bundan öncə də 2 nəfərə ilk dəfə meymun çiçəyi diaqnoz olunub.

Bu dəfə yoluxanlar 7 mayda yoluxanlarla təmasda olmayıb, ölkənin tamam ayrı regionundandır. Bu insanların harda, necə yoluxması araşdırılır.

Əgər meymun çiçəyi daha 10 nəfərdə aşkarlansa, bu Britaniya hökumətini təcili tədbirlər görməyə vadar edəcək.